www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 avqust 2019-cu il Cümə axşamı № 173 (7343) Qiymәti 60 qəpik

**Xəbər**

## Arif Əsgərov və oğlunun adı daha bir qalmaqalda

yazısı səh.12-də

**Gündəm**

### Nazirin oğluna ABŞ-da toy etdiyi üçün tənqid olunmasının səbəbləri açıqlandı



**Fəzail Ağamalı:** "Elmar Məmmədyarovun bu məsələdə qınanması onun mübariz və prinsipial xarici işlər naziri olmaması ilə bağlıdır"

yazısı səh.10-da

### Hərəkatçılar yenidən hakimiyyətə gəlsə...

yazısı səh.4-də

### Hüseyn Abdullayev şərti cəza ilə azad oluna bilər

yazısı səh.6-da

### "Mühacir alveri ilə Avropada bir şəbəkə məşğul olur" - İsveçdə yaşayan azərbaycanlı rejissor

yazısı səh.12-də

### Putin - Rusiyanın xilaskarı, yoxsa...

yazısı səh.9-da

### Hakimiyyət İbrahimbəyovu bağışlayıbmı - partiya sədrindən açıqlama...

yazısı səh.10-da

### "QKÇP" dönəmindən qalan ağır miras

yazısı səh.13-də

### "İran da gözlənilməz addımlar ata bilər" - Cavad Zərif

yazısı səh.10-da

### "Sovetski"ni bu dəfə metropoliten sökəcək

yazısı səh.14-də

### Paşinyan Sumqayıt ermənisini müşavir təyin etdi

yazısı səh.13-də

### Məhərrəmlik əyyamı gəlir - matəmin 60 gün olmasının səbəbi

yazısı səh.15-də

# "ERMƏNİSTAN" BOYKOT EDİLİR - MOSKVADA ANTİ-ERMƏNİ KAMPANİYASI

Erməni iş adamları Rusiya müxalifətinin qəzəbinə gəldilər; Rusiya da mənfur qonşular üçün arzuolunmaz məkana çevrilir; Solovyev kimi qatı erməni havadarlar dərhal əl-ayğa düşdülər...




yazısı səh.8-də

## "İşsizin DOSTu" proqramı necə icra olunur - faktlar və rəylər

**Sahib Məmmədov:** "Şəffaflığı təmin etmək üçün proqram çərçivəsində işə götürülənlərin adları açıqlanmalıdır"

yazısı səh.11-də



*Aydın Mirzəzadə:*

### "Məqsədləri Rusiya ilə əlaqələrimizi pisləşdirməkdir"

yazısı səh.4-də



### Pənah Hüseyndən DTK arxivləri ilə bağlı yeni açıqlamalar

yazısı səh.5-də



### İqbal Məmmədovun deputat mandatı alına bilər

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019



## Sabir Nağıyevə general-leytenant, Bəhlul Əliyevə general-mayor ali hərbi rütbələri verildi

**Azərbaycan Prezidenti İlham Əliyev Bəhlul Lətif oğlu Əliyevə general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, prezidentin digər sərəncamı ilə Sabir Nağı oğlu Nağıyevə general-leytenant ali hərbi rütbəsi verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Xüsusi Dövlət Mühafizə Xidmətinin bir qrup hərbi qulluqçuları və mülki işçiləri təltif ediliblər.

## Məhsulun qiymətini göstərməyən sahibkarlar cərimələnəcək

**Müxtəlif qida və geyim tələbatlarımızı qarşılamaq üçün mağazalara girib alış-veriş edirik. Bəzən isə görürük ki, mağazalarda satılan malın üzərində qiymət yazılmayıb.**

Oxu.az məsələyə hüquqi aydınlıq gətirməyə çalışıb.

Nazirlər Kabinetinin təsdiq etdiyi "Azərbaycan Respublikasında ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) Qaydaları"na əsasən, satışa daxil olmuş bütün malların üzərində malın adı, növü və qiyməti göstərilməklə dəqiq tərtib edilmiş qiymət kağızı olmalıdır. Eyni zamanda qiymət kağızının arxa tərəfindən mütləq maddi-məsul şəxsin imzası və onun doldurulma tarixi yazılmalıdır.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna görə isə istehlakçı aldığı malların keyfiyyətini, komplektliyini, ölçüsünü, çəkisini və qiymətini yoxlamaq, malların düzgün və təhlükəsiz istifadəsini nümayiş etdirmək hüququna malikdir.

Belə hallarda satıcı istehlakçının tələbi ilə ona nəzarət-ölçü cihazlarını, malın qiyməti haqqında sənədləri təqdim etməlidir.

İnzibati Xətalar Məcəlləsinin 445-ci maddəsində isə qiymətlərlə bağlı tələblərin yerinə yetirilməməsinə görə cəza nəzərdə tutulub.

Belə ki, qiymət intizamının pozulmasına, yəni satışda olan malların üzərində qiymət kağızlarının və ya göstərilən xidmətlər və ya işlər üçün qiymət cədvəllərinin (menyuların) olmamasına və ya onların düzgün tərtib edilməməsinə görə 800 manatdan 1000 manatadək məbləğdə cərimə tətbiq olunur.

Həmin maddənin ikinci bəndində isə yazılıb ki, Azərbaycan ərazisində satılan malların (işlərin, xidmətlərin) qiymətlərinin manatla göstərilməməsi şərtdir. Əgər bu tələb yerinə yetirilməsə, sahibkar 1100 manatdan 1650 manatadək məbləğdə cərimə edilə bilər.

## Saxta nömrə ilə Bakıda avtoxuliqanlıq edən şəxs tutuldu

**Bakının Nəsimi rayonunda yol hərəkət iştirakçılarına təhlükə yaradan, yol hərəkəti qaydalarını kobud şəkildə pozaraq avtoxuliqanlıq edən sürücü Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən saxlanılaraq məsuliyyətə cəlb edilib.**

Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov APA-ya bildirib ki, 99 AM 356 dövlət qeydiyyat nişanlı, "Renault Tondar" markalı nəqliyyat vasitəsinin sürücüsü, Bakı şəhər sakini, 1989-cu il təvəllüdlü Kamil Umud oğlu Babayev rayon ərazisində avtoxuliqanlıq etdiyinə görə saxlanılıb. O, idarə etdiyi avtomobilə başqa dövlət nömrə nişanı - 10 PS 510 nömrə nişanı vurmaqla idarə edib, hətta bəzən nömrədəki "P" hərfinə rəngli yapışqanla müdaxilə edərək "R" halına salıb.

Polis əməkdaşları tərəfindən avqustun 19-da idarə etdiyi avtomobillə birlikdə Kubinka adlanan ərazidə saxlanılan Kamil Babayev ərazidə yaşayan insanların, tanışlarının müdaxiləsindən istifadə edərək, həmin gün oradan qaçmağa müvəffəq olub.

Lakin o, avqustun 21-də Nəsimi RPİ 21-ci PB əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq, barəsində toplanan materiallar qərar qəbul edilməsi üçün rayon məhkəməsinə göndərilib.

Məhkəmədə avtoxuliqanlıq əməlləri sübut edilən Kamil Umud oğlu Babayevin sürücülük hüququ 1 il müddətinə məhdudlaşdırılaraq, 1 ay müddətinə inzibati həbs olunub, eləcə də polisin qanuni tələbinə tabe olmadığına görə 200 manat cərimə edilib.

# Mehriban Əliyeva Rəşad Atakişiyevin ailəsinə başsağlığı verib, vida mərasiminə əklil göndərib







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Silahlı Qüvvələrin MiQ-29 təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin ailəsinə başsağlığı verib.**

APA-nın məlumatına görə, Mehriban Əliyeva pilotun vida mərasiminə əklil də göndərib.

Qeyd edək ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən HHQ-nın MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Avqustun 20-də MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi tapılaraq dənizdən çıxarılıb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## Əbülfəz Elçibəysiz 19 il

**Bu gün Azərbaycan milli azadlıq hərəkatının lideri, mərhum prezident Əbülfəz Elçibəyin vəfatından 19 il ötür. 24 iyun 1938-ci ildə Naxçıvan MR-in Ordubad rayonunun Kələki kəndində anadan olan Əbülfəz Elçibəy 8 iyun 1992-ci ildə Azərbaycan Respublikasının Prezidenti seçilib. 1993-cü il 4 iyun qiyamı ilə hakimiyyətdən uzaqlaşdıqdan sonra doğma Kələki kəndinə yollanıb və burada 4 il 4 ay yaşayıb.**



1997-ci ilin 30 oktyabrında Bakıya dönən Elçibəy yenidən Azərbaycan müxalifətinin liderinə çevrilib. 1997-ci ildə Demokratik Konqresə sədr seçilən AXCP sədri həmin ilin noyabrında Bütöv Azərbaycan Birliyini də yaradıb və ona başçılığı öz üzərinə götürüb. Elçibəy 22 avqust 2000-ci ildə 62 yaşında Ankarada xərçəng xəstəliyindən vəfat edib. Mərhum prezident I Fəxri Xiyabanda dəfn edilib.

Hər il olduğu kimi, siyasi partiyalar, Elçibəyin davamçıları gün ərzində müxtəlif saatlarda onun məzarını ziyarət edəcəklər.

AĞ Partiya başqanı Tural Abbaslı Fəxri Xiyabanda Ə.Elçibəyin məzarını ziyarət edəcəklərini, ruhuna dualar oxuyacaqlarını bildirdi.

Müsavat Partiyası saat 12:00-da ziyarət təşkil edəcək.

Klassik Xalq Cəbhəsi Partiyası saat 11-də Fəxri Xiyabanda olacaq. Bu barədə "Yeni Müsavat"a qurumun idarə heyətinin üzvü Xəzər Teyyublu məlumat verdi: "Elçibəyin vəfat günü Savalanı ziyarət günü kimi qeyd edilir. Bu günlə bağlı partiyamız saat 11:00-da Fəxri Xiyabanda anım tədbiri keçirəcək. Daha sonra fəallar partiya ofisində tədbirin davamı olaraq toplanacaqlar".

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlı da edəcəkləri ziyarətdən danışdı: "Saat 10:00-da partiyamızın lideri Qüdrət Həsənquliyev və partiya rəhbərliyə daxil olunan şəxslər, İdarə Heyətinin üzvləri, rayon təşkilatlarının sədrləri və Ali Məclis üzvləri Milli Azadlıq Hərakatının lideri, eks-prezident Əbülfəz Elçibəyin vəfatının ildönümü münasibətilə onun məzarını ziyarət edəcək. Əbülfəz Elçibəy dünyasını dəyişəndən bu günə qədər hər il Fəxri Xiyabanda onun vəfatının ildönümü BAXCP rəhbərliyi tərəfindən qeyd olunur. Yenə də Qüdrət bəyin rəhbərliyi ilə Əbülfəz bəyin qəbrini ziyarət edəcəyik və öz ehtiramımızı bildirəcəyik. Əbülfəz Elçibəy xalqını, millətini, dövlətini və vətənini təmənnasız sevən, Azərbaycan siyasətinə təmizlik və dürüstlük gətirən türk kişisi idi. Onun ideyalarını BAXCP olaraq biz bu gün də yaşadırıq və yaşadacağıq. Bunu biz bir mənəvi borc sayırıq. Allah Azərbaycanın müstəqilliyi uğrunda çalışmış və dünyasını dəyişmiş hər kəsə rəhmət eləsin".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Maşın vuran yeniyetməni xəstəxanaya çatdırmaq istəyən şəxs qəzaya düşərək ölüb

**Quba rayonunda avtomobillə vurulan yeniyetməni xəstəxanaya çatdırmaq istəyən şəxs qəzaya düşərək ölüb.**

"Report"un Şimal bürosunun verdiyi məlumata görə, hadisə Rustov kəndində qeydə alınıb.

Belə ki, 1992-ci il təvəllüdlü Emin Səfərəli oğlu Əzizov kənd içində avtomobilin vurduğu qonşusunun oğlunu öz maşını ilə xəstəxanaya çatdırmaq istəyib. Ancaq idarəetməni itirərək yol kənarındakı maneəyə çırpılıb. Nəticədə E.Əzizov hadisə yerində ölüb.

Yeniyetməni vuran sürücünün kimliyi məlum deyil.

Faktla bağlı araşdırma aparılır.

## Abşeronda kombi istehsalı zavodu fəaliyyətə başlayıb

**Abşeron rayonu ərazisində dövlət dəstəyi, yerli və Çin investisiyası əsasında kombi istehsalı zavodu fəaliyyətə başlayıb. Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) "APA-Economics"ə verilən məlumata görə, "Elektrogas" MMC-yə məxsus Azərbaycan-Çin müştərək müəssisəsi olan zavodun illik istehsal gücü 120 min ədəd kombi təşkil edir. Hazırda zavodda 30 nəfər işlə təmin olunub. Gələcəkdə isə zavodda 200-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur.**



Zavodun yaradılmasına 2 mln. manat investisiya qoyulub ki, bunun da yarısı xarici sərmayədir. Gələcəkdə zavoda yatırılacaq sərmayələrin həcmi 11 milyon manata çatdırılacaq. Bu, zavodun istehsal profilinin daha da genişləndirilməsinə imkan verəcək.

Zavodun məhsulları daxili tələbatın ödənilməsinə yönəldilməklə yanaşı, gələcəkdə "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə ixrac ediləcək.

Kombi zavodunun fəaliyyətə başlaması ilə bağlı "Elektrogas" MMC-yə investisiya təşviqi sənədi təqdim olunub. Bu sənəd şirkətə bir sıra güzəştlərdən istifadə etməyə imkan verir. Belə ki, investisiya təşviqi sənədi şirkəti 7 il müddətinə mənfəət vergisinin 50%-dən, əmlak, torpaq vergilərindən, idxal olunan avadanlıq və qurğular üçün ƏDV-dən və gömrük rüsümlarından azad edir.

YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019

**Təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyevlə avqustun 21-də vida mərasimi keçirildi.**



# Pilot Rəşad Atakişiyev dəfn olundu

## Həyat yoldaşı: "Arzumuz, xəyallarımız baş tutmadı..."

















"Yeni Müsavat" xəbər verir ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunan vida mərasimində iştirak edən Müdafiə Nazirliyinin rəhbərliyi pilotun valideynlərinə və yaxınlarına başsağlığı verdi. Vida mərasiminə ictimaiyyət buraxılmasa da, dəfn mərasimi izdihamlı keçdi.

Məlumat verək ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb. Axtarış və xilasetmə tədbirləri fasiləsiz olaraq aparılsa da, pilotun nəşi tapılmırdı. Bu proseslərə qardaş Türkiyədən də axtarış qrupu cəlb olundu. Nəhayət, avqustun 20-də pilot Rəşad Atakişiyevin nəşi və eləcə də təyyarənin qalıqları tapılaraq, dənizdən çıxarıldı. Təyyarənin "qara qutusu" hələ oxunmadığı üçün hadisənin hansı səbəbdən baş verdiyi ictimaiyyətə açıqlanmayıb.

Şəhid pilotla vida mərasimi avqustun 21-də saat 9:00-da öncə evinin önündə keçirildi. Sonra isə pilotun nəşi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə, oradan isə torpağa tapşırılması üçün İkinci Fəxri Xiyabana gətirildi. Pilot Rəşad Atakişiyev aprel şəhidləri ilə eyni cərgədə torpağa tapşırıldı. Dəfn mərasimi zamanı dövlət himni səsləndirilib, yaylım atəşi açıldı.

**Dəfn mərasimində mərhum pilotun həyat yoldaşı Könül Hüseynova söylədi ki, günlərdir ki, gözləyir, həyat yoldaşının sağ-salamat qayıdacağına ümid edirmiş:** "Rəşadın məğrurluğu, şücaəti bizə güvən verirdi ki, sağ-salamat evinə, övladlarının yanına qayıdacaq. Təəssüf edirik ki, arzumuz, xəyallarımız baş tutmadı. O, mərd və vətənini sevən, gözəl qəlbli və təmiz, pak hisslərlə yaşayan bir insan idi. Onun iki gül balası da adını layiqincə davam etdirəcək və ölkəmizə layiqli, vətənpərvər bir övlad kimi yetişəcəklər".

**Daha öncə də məlumat verdiyimiz kimi Rəşad Atakişiyev tanınmış politoloq Qabil Hüseynlinin kürəkənidir. Dəfn mərasimində Qabil Hüseynli bildirdi ki, Rəşad çətin həyat yolu keçərək, öz sahəsi üzrə xeyli irəli getmişdi:**

"300 nəfərin içərisindən seçilən 5 nəfərdən biri kimi peşəsini gözəl bilirdi. Onun xeyli arzuları vardı ki, həyata keçirə bilmədi. Biz bu gün həm qürurlu, həm də kədərliyik. Şəhidimiz Rəşad Atakişiyevlə bağlı qürur duyuram. Onun qanı torpağa tökülməsə də, Xəzər dənizinə axdı. Allah rəhmət eləsin. Bizimlə olan, bura gələn hər kəsə də çox sağ olun deyirəm. Rəşad çox şərəfli ömür sürüb. O, vətən uğrunda şəhid oldu".

**Qabil Hüseynli jurnalistlərə açıqlamasında təyyarənin "qara qutu"sunun açılması barəsində də danışıb. O bildirib ki, "qara qutu" Azərbaycanda tədqiq olunacaq:**

"Bununla bağlı laboratoriya yaradılıb. Bildiyimiz kimi, təyyarə son təmir üçün Ukraynanın Lvov şəhərinə göndərilib. Ona görə də Ukraynadan mütəxəssislər çağırılıb. "Qara qutu" bir qədər zədələndiyinə görə özləri ilə qab gətirəcəklər və qutu yeni qaba köçürüləcək. Məncə, problem olmadan oxunacaq. İnternetdə bu tipli qəzaları araşdırdım. Məlumatlar topladım. Qəribədir ki, qəzaların böyük əksəriyyətində pilot katapult edib. Rəşadın təyyarə qəzası sirlidir. Ona görə də qəzanın üzərinə "qara qutu"nun açılması və məlumatların oxunması böyük işıq salacaq. Əminəm ki, bu işlər vicdanla aparılacaq və nəticə ortaya qoyulacaq. Bildiyiniz kimi, Rəşadın qəzaya uğradığı təyyarə ilə radar və radioəlaqəsi eyni zamanda kəsilib. Əlaqə kəsilən kimi də təyyarənin dənizə doğru yönləndiyi təsbit edilib. Hər şeyi aparılan tədqiqatların nəticəsi söyləyəcək".

Mərhum pilotun 3 mərasimi "Heydər" məscidində keçiriləcək. Yaşadığı binanın həyətində isə çadır qurularaq, onun ruhunu anmaq istəyənlər qəbul edilir.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Sularda bitən şahin ömrü



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Xəzər bunca qəddar olmamışdı bizə qarşı. Bu il yaman çox can aldı. İki-iki, hətta dörd-dörd uddu sevə-sevə ona pənah gətirənləri - gəncləri, məktəb yaşlı uşaqları. Gənc hərbi pilotumuz, polkovnik Rəşad Atakişiyev də o sırada yer aldı. Ürək dağlayan bir statistika...**

Rəşad Atakişiyevin nəşi iki gün öncə, nəhayət, dənizdən tapılaraq çıxarıldı. Təxminən 1 ay sonra. Sanki Xəzər də udduğu qiymətli əmanətləri geri vermək istəmir. Dünən mərhum zabitimizlə vida mərasimi keçirildi. Allahdan ona rəhmət, doğmalarına, öncəliklə də iki azyaşlı övladına və hörmətli Qabil Hüseynliyə səbir diləyirik.

Rəşadın son uçuşu Qarabağ üzərində deyil, Xəzər üzərində oldu. Bu da bir alın yazısıdır. Zərrəcə şübhəmiz yox ki, erməni işğalçılarına qarşı müharibə başlasaydı, təcrübəli şahinimiz öz sözünü mütləq orada - Qarabağ səmasında deyəcək, Azərbaycanın hərb tarixinə öz adını layiqincə yazacaqdı. Təlim-məşq uçuşlarının tək hədəfi zatən, bu.

Təəssüf, əcəl imkan vermədi. Bunun texniki, yoxsa insan amili ilə əlaqəli olması yəqin ki, dəqiqləşər. 34 yaşlı Rəşadın səhhətində hansısa problem yaşamaması deməyə əsas verir ki, səbəb böyük ehtimalla, insan faktoru deyil. İstənilən halda, yəqin ki, aidiyyəti qurumlar əsl səbəbi tapıb müvafiq nəticələr çıxaracaq.

Əlbəttə, heç bir ordu belə qəzalardan sığortalanmayıb. Rusiya, ABŞ silahlı qüvvələrində də zaman-zaman bənzər faciələr yaşanır. Ancaq Azərbaycan kiçik ölkədir, üstəlik, bizim nə bahalı MiQ-lər, nə də F-35-lər istehsal eləməyə potensialımız var. Demək, döyüş maşınlarımızın, onlardan da öncə Rəşad kimi peşəkar pilotlarımızın qədrini ikiqat-üçqat bilməliyik. Paralel surətdə Rusiyadan alınan hərbi maşınlarımızın texniki vəziyyətinə əminliyimiz olmalıdır. Olayın bir həssas tərəfi də bu.

Odur ki, son insident kitab təki, vərəq-vərəq araşdırılmalı, faciəvi xəta, yaxud qüsur dəqiqləşməlidir. Hərbi ekspert Üzeyir Cəfərovun da sözünü gərək qəribçiliyə salmayaq. "Qara qutu"nun oxunmasını sırf Moskvanın öhdəsinə buraxmaq olmaz. Yaxın tarix göstərir ki, əks halda, oxunası bir şey qalmayacaq. Çünki MiQ-lərin istehsalçısı və tədarükçüsü kimi Rusiya məsələdə maraqlı ola bilər.

Bu, həm də ona görə lazımdır ki, müharibə hələ bitməyib və həlledici Qarabağ savaşında hərbi aviasiya aparıcı rol oynayacaq. Hərbi təhlilçilərə görə, Dağlıq Qarabağ və ətraf ərazilərin relyefi, dağ massivlərinin mövcudluğu bunu zəruri edir. Ümumiyyətlə, müasir hərb sənətində belə qənaət var ki, müharibəni məhz hava məkanında üstünlüyü olan tərəf, ölkə aparır. Bu üstünlük isə artıq təmin edilib. Eyni zamanda, Rəşad Atakişiyev kimi rəşadətli pilotların hesabına...

Dünənki vida mərasimi göstərdi ki, xalq öz vətənpərvər övladlarına, şəhidinə həmişəki kimi, lazımi dəyəri verir, onların xatirəsini, hörmətini əziz tutur. Rəşada da məhz şəhidə olan münasibət, ehtiram var idi cəmiyyətdə. Belə bir ovqat son dəfə 2016-cı ildə, 4 günlük aprel döyüşləri zamanı yaşanmışdı. Bu da təbiidir. Xalq öz ordusunun, silahlı qüvvələrinin arxasındadır. Ondan təkcə qələbə gözləmir, həm də onunla nəfəs alır. Həmçinin dövlət ona layiqli dəyəri verdi - Fəxri Xiyabanda torpağa tapşırıldı.

Bu, Rəşadın son uçuşu oldu. Şahin ömrü sularda bitdi. Amma Azərbaycanın üçün son deyil sözsüz ki. Rəşad kimi peşəkarlar var, davamı da gələcək. Kim bilir, bəlkə onun oğul övladlarından biri elə onun yolunu davam etdirdi - yarımçıq qalan həyat yolunu tamamlamaq üçün...



**Fərəc Quliyev:** "Hakimiyyət dəyişikliyi olacaqsa, o hakimiyyətdə mənim partiyam təmsil olunacaq"



**Oqtay Qasımov:** "Onlar vahid komanda şəklində deyillər"

# Hərəkatçılar yenidən hakimiyyətə gəlsə...

**"Yeni Müsavat" son saylarında bir sıra tarixi faktları üzə çıxardı. Müsavat Partiyasının başqanı Arif Hacılının Gəncə Şəhər İcra Hakimiyyətinin qarşısında 1993-cü ilin fevralında etdiyi videoçıxışını feysbuq profilində paylaşmasının ardından AXC iqtidarında baş nazir olmuş, AXP sədri Pənah Hüseyn qəzetimizə açıqlama verdi.**

Sabiq baş nazir gündəmi silkələyəcək ilginc faktlar açıqladı. O, 1993-cü ildə 9 fevralda qəbul olunan bəyanatın televiziyada səsləndirilməsinin ardından həmin bəyanatda xəyanətkar elan olunan, mərhum prezident Əbülfəz Elçibəy hakimiyyətində müdafiə naziri olan Rəhim Qazıyevin ona zəng edərək, Prezident Aparatını bombalayacağı ilə bağlı hədələr yağdırdığını qeyd etdi. R.Qazıyev isə öz cavabında P.Hüseynin dediklərini təkzib etdi, sadəcə, onunla telefonda sərt formada danışdığını bildirdi.

Bütün bunlardan sonra bəzi müzakirələr açıldı. Müzakirələrin əsasını isə AXC iqtidarında təmsil olunanların bir-birinə qarşı münasibətləri, mərkəzdənqaçma meyllərinin o dövrdə nə qədər güclü olduğu və digər bu kimi məsələlər təşkil etdi. Şərti olaraq haqlı suallar meydana çıxıb ki, həmin dövrdə iqtidarda təmsil olunanlar yenidən hakimiyyətə gəlsələr, eyni vəziyyət yaranarmı?

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev gedən müzakirələrə bu cür şərh verdi:** "25 il əvvəlki hadisələrə qayıtmaq, onlarla uğraşmaq fikrində deyiləm. Hesab edirəm ki, bu gün Azərbaycan siyasətinə təsir edə bilməyən insanlar, Arif Hacılı kimi birisi 1993-cü ildəki videoçıxışını paylaşıb gündəmə gəlmək istəyir. Yəni şərtlər, zaman dəyişib, siyasi palitrada müəyyən qüvvələr yerlərində dəyişiklik ediblər. O dönəmdəki Azərbaycan Xalq Cəbhəsi yoxdur. İndi Xalq Cəbhəsi adı altında fəaliyyət göstərən müxtəlif təşkilatlar var. O zaman da təşkilatın daxilində müəyyən fraksiyalar var idi. Elçibəyi qəbul etməyən qüvvələr özlərinə partiya düzəltdilər. İndinin özündə həmin qüvvələr hakimiyyətə gəlmək üçün mübarizə aparmır, fəaliyyət göstərmirlər. Hakimiyyətə gəlmək perspektivləri də yoxdur. Birlikdən danışmaq isə ümumiyyətlə, mümkün deyil. Məni Azərbaycanın taleyi və gələcəyi düşündürdüyünə görə keçmişə səyahət etmək fikrində deyiləm. Hakimiyyət dəyişikliyi olacaqsa, o hakimiyyətdə mənim partiyam təmsil olunacaq".

**Ə.Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov hakimiyyət dəyişikliyinə inanmır:** "1992-93-cü ildən bizi çox ciddi zaman kəsiyi ayırır. AXC hakimiyyətində təmsil olunanların böyük əksəriyyəti ayrı-ayrı partiyalarda, siyasi bloklarda təmsil olunurlar. Hazırda onlar vahid komanda şəklində fəaliyyət göstərmirlər ki, eyni komanda ilə iqtidara gəlsinlər. Onu qeyd edək ki, 1992-93-cü ilin hakimiyyəti rəhmətlik Əbülfəz Elçibəyin dediyi kimi, cəmiyyətin müxtəlif qüvvələrinin cəmləndiyi bir hökumət idi. Orada Xalq Cəbhəsindən gələn qüvvələr təmsil olunurdular, eyni zamanda Ayaz Mütəllibov dövründən qalan peşəkar kadrlar da vəzifələrində qalırdılar. 1992-ci ilin mayında Ayaz Mütəllibovun yenidən hakimiyyətə qayıdış cəhdinin qarşısı alınandan sonra onun baş nazir etdiyi Rəhim Hüseynov vəzifəsində qaldı, 1993-cü ilin yanvarına qədər. Yəni o komanda yekcins deyildi. Yaqub Məmmədovun dövründə vəzifələrə təyin olunanlar da Xalq Cəbhəsi zamanında vəzifələrində qaldılar. Bu baxımdan o dövrdə hökumətdə təmsil olunanların hamısını Xalq Cəbhəsi hakimiyyətinin komandası kimi qələmə vermək olmaz. O da doğrudur ki, AXC iqtidarında təmsil olunanların çoxu bu gün ayrı-ayrı təşkilatlarda təmsil olunurlar, yürütdükləri siyasət bir-birindən fərqlənir. Onlar vahid komanda şəklində deyillər. Bir blokda təmsil olunmadıqları üçün deyə bilmərik ki, həmin komanda yenidən hakimiyyətə gəlsə, 1992-93-cü illərdəki neqativ hallar özünü göstərə bilər. Bu baxımdan bunu istisna edirəm. Yaxın gələcək üçün o zaman hakimiyyətdə təmsil olunmuş qüvvələrin bir blokda təmsil olunub iqtidara gələcəklərini real saymıram. Xalq Cəbhəsi hakimiyyətə gələn dövrdə siyasi şərait tamam fərqli idi. O zaman milli həmrəylik yaratma yönündə fəaliyyət aparılırdı. Bunun üçün də başqa qüvvələr də hakimiyyətdə təmsil olunurdular. Hazırda heç bir partiyanın, o cümlədən hakim partiyanın belə bir hökuməti əhatə edəcək kadr potensialı yoxdur. O zaman hakimiyyətdə təmsil olunmuş insanların böyük əksəriyyətini əhatə edəcək bir komandanın formalaşacağı, açığı, real görünmür".

❑ **Cavanşìr ABBASLI**
**"Yenì Müsavat"**

# "Bu fikri səsləndirməkdə məqsədləri Rusiya ilə əlaqələrimizi pisləşdirməkdir"

## Aydın Mirzəzadə: "Ölkənin daxilində və xaricində müəyyən qruplar mövcuddur ki, öz istəklərini bizə eksport etmək istəyiblər, amma..."

**Milli Məclisin deputatı Aydın Mirzəzadə ilə regiondakı proseslər, Rusiyada keçirilən nümayişlər, bu aksiyaların postsovet coğrafiyasına və Azərbaycana təsiri, o cümlədən ABŞ-ın Gürcüstanda baza qurmağa hazırlaşması barədə söhbətləşmişik.**

*A.Mirzəzadə habelə hakimiyyətin atdığı addımlar, daxili və xarici siyasətində Rusiyanı təkrarlaması fikirləri, xaricdən səslənən bəyanatlar, payızda ölkədə hansısa qarışıqlıq olacağı iddiaları və digər məsələlərlə bağlı suallarımızı cavablandırıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:*

***- Aydın müəllim, Azərbaycandakı ictimai-siyasi vəziyyət qonşularla müqayisədə nə ilə fərqlənir?***

- Hesab edirəm ki, ilk növbədə Azərbaycanda davamlı sabitlik, ictimai təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunması bizi fərqləndirir.

Eyni zamanda dövlətin sahibkarlığa dəstəyi, insan haqlarının qorunması, iqtisadiyyatda xarici kapitala qoyuluş və vətəndaşlar üçün cəlbedici şərait olması vurğulanmalıdır.

Ölkədə sosial problemlərin həll edilməsi, vətəndaşların müraciətlərinə baxılması qeyd edilməlidir.

Bizim ölkədə yaşayan müxtəlif xalqların dininə, mədəniyyətinə böyük hörmətimiz var və Azərbaycan tolerant bir respublika kimi tanınır.

***- Gürcüstanda vaxtaşırı, bir neçə gün qabaq Ermənistanda parlament önündə, habelə günlərdir Rusiyada aksiyalar keçirilir. Bu mənada bizdəki sakitliyi müxalifətin zəifləməsi ilə əlaqələndirməliyik, yoxsa?***

- İnsanlar o zaman küçəyə çıxır ki, onların problemləri kabinetdə həll olunmur. Yəni hakimiyyət idarəçilikdə effektli mexanizm yarada bilmir, vətəndaşların səsini eşitmək üçün lazımi sistemi qura bilmir.

Azərbaycanda vətəndaşların müraciətləri istərsə dövlət başçısına, istərsə müxtəlif instansiyalara zamanında çatdırılır, bu çağırışlar dövlət rəhbərliyi tərəfindən eşidilir.

Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva hər bir ailənin probleminə reaksiya verir, həllinə kömək edir, vətəndaş öz dövləti tərəfindən ona göstərilən qayğını görür, dayağı hiss edir, dövlətinə arxayın olur.

Lakin Azərbaycanda müəyyən qruplar var ki, onlar ruhən müxalifətçidirlər, iqtidar olmaq istəyirlər. Bu da başadüşüləndir.

Ancaq onların keçirdikləri aksiyalar kütləvi xarakter daşımır və vətəndaşlara aidiyyəti yoxdur. Çünki özləri üçün keçirirlər.

Azərbaycanda çox yaxşı sosial sistem var, insanlara diqqət yetirilir, maraqları qorunur, əhalinin sosial problemləri həll olunur.

Heç kəs demir ki, Azərbaycanda hamının maaşı yüksəkdir, heç kəs demir ki, problem tamamilə yoxdur. Əlbəttə, həll edilməli məsələlər var və problemlər deyilir, dilə gətirilir, tərəfimizdən də səsləndirilir, çıxış yolları da göstərilir. Belə desək, Azərbaycan hakimiyyəti cəmiyyətə həmişə hesabat verir.



### "Moskvadakı nümayişlərin ölkəmizə təsirini gözləmirəm"

***- Bəzən fikirlər səslənir ki, Azərbaycan hökuməti Rusiya iqtidarının siyasi texnologiyalarını təkrarlayır. Siz bu mülahizəni bölüşürsünüzmü?***

- Bu fikirlə qətiyyən razı deyiləm. Hər bir ölkənin öz mexanizmi, idarəçilik sistemi var. Azərbaycan müstəqillik dövründə spesifik modelini yaradıb və daim yenilənir, o cümlədən beynəlxalq təcrübədəki yaxşılardan nümunə götürülür, istifadə edilir.

Amma hansısa ölkənin modelinin Azərbaycana gətirilməsindən söhbət gedə bilməz. Kimlər ki, Azərbaycanın Rusiyadan idarəçilik modelini götürdüyü fikrini səsləndirir, onların məqsədi iki dövlət arasında münasibətləri pisləşdirməkdir.

Azərbaycan Ermənistan istisna olmaqla, bütün qonşu ölkələrlə xoş münasibət saxlayır, bu əlaqələrin daha da dərinləşməsində maraqlıyıq, heç bir dövlətin daxili işlərinə qarışmırıq. Azərbaycan öz milli maraqlarını qoruyur və vətəndaşlarının istəklərini yerinə yetirir.

***- Sizcə, Rusiya ilə Azərbaycanın arasını vurmaq istəyənlər Qərbdəki dairələrdir?***

- Mən ad çəkmək istəmərdim. Ermənistan istisna olmaqla, bizim bütün qonşu dövlətlərlə xoş münasibət saxlamaq üçün imkanlarımız var.

***- Siyasətçilər arasında bu fikirdə olanlar var ki, Moskvada Putin əleyhinə keçirilən nümayişlər postsovet respublikalarında siyasi fəallığa təsir edə bilər. Sizin gözləntiləriniz nədir?***

- Mən başqa ölkələrlə bağlı proqnoz verə bilmərəm. Lakin Azərbaycan heç kəsdən asılı deyil və bu hadisələrin ölkəmizə təsirini gözləmirəm. Rusiya böyük ölkədir, onun problemlərini həll etmək potensialı, resursu var.

***- Xaricdəki azərbaycanlılardan bəziləri oktyabr-noyabra Azərbaycanda "inqilab təyin ediblər". Bu mənada Rusiyada etirazların güclənməsi payızda bizə transformasiya ola bilərmi?***

- Azərbaycanın daxilində və xaricində müəyyən qruplar mövcuddur ki, öz istəklərini bizə eksport etmək istəyiblər. Amma bizim öz inkişaf xəttimiz var və hansısa ölkənin qarşılaşdığı vəziyyəti bizə daşımaq mümkün deyil. Əgər kütləvi protest varsa, deməli, problemlər var. Azərbaycanda etirazlar kütləvi deyil və təbii ki, hakimiyyət də vətəndaşlar qarşısında öz məsuliyyətini dərk edir.

Cənab prezidentin və Mehriban xanımın fəaliyyətinin mərkəzində vətəndaşların maraqları, əhalinin sosial rifahının yüksəldilməsi durur. Bu fəaliyyət də göz qabağındadır.

Prezident tərəfindən maaşlar, pensiyalar artırılır, regionlarda yeni iş yerləri açılır, iş adamlarına dəstək verilir, qeyri-neft sektorunda inkişaf var. Ölkəmizə gələn turistlərin günbəgün çoxalması da bu sektorun inkişafına təsir edir.

Prezidentin bölgələrə hər səfəri yeni iş yerlərinin, müəssisələrin açılması ilə müşayiət olunur. Bu baxımdan insanların problemləri hakimiyyətin diqqətindən kənarda deyil.

***- "Novaya Vremya" bugünlərdə yazıb ki, ABŞ Gürcüstanda üç hərbi baza qurmağı nəzərdə tutur. Nəzərə alsaq ki, Ermənistanda Rusiya hərbi bazası var, Gürcüstanda Amerika hərbi bazaları olarsa, Azərbaycan hansısa strateji seçim etməli olacaqmı?***

- Biz nəyə görə strateji seçim etməliyik? Azərbaycana qonşu olan ölkələr öz xarici və daxili siyasətinə uyğun seçim edir. Və burada bizə toxunan məsələ yoxdursa, onların seçiminə hörmətlə yanaşmalıyıq.

Ermənistanda Rusiyanın hərbi bazasının olmasına narazılıq edirik. Çünki torpaqlarımız işğal olunub və onlardan zaman-zaman Azərbaycanla müharibədə rus hərbi bazasından istifadə ediləcəyi hədəsi gəlir. Çünki Ermənistan Azərbaycanla müharibəyə Rusiyanı cəlb etmək istəyir. Rusiya rəsmi dairələri isə imtina edir, Ermənistan tərəfinin dediklərini qəbul eləmirlər.

Azərbaycan bu gün həm Rusiya, Avropa, Amerika, həm Türkiyə və İranla çox yaxşı münasibət saxlayır. Bizim müstəqil siyasətimizə hörmət edirlər.

Azərbaycandan mütəxəssislər NATO-ya hərbi təlimə gedirlər. Eyni zamanda Rusiyadan və dünyanın başqa ölkələrindən hərbi texnika alırıq. Bu da hörmət doğurur.

Təsadüfi deyil ki, dünyanın iki nəhəng hərbi bloku olan NATO-nun və Rusiyanın Baş Qərargah rəisləri növbəti dəfə görüş yerini Azərbaycan seçdilər. Bu, qazandığımız etimadın göstəricisidir

Eyni zamanda Avroliqa finalının Bakıda keçirilməsi dünyanın diqqətini ölkəmizə yönəltdi. Biz bu yarışdan 780 milyon qazanc əldə etdik və stadionun inşasına xərclənən maliyyədən daha çox vəsait büdcəyə qaytarıldı.

***- Sizcə, Ermənistanda və Gürcüstanda hərbi bazalar məsələsinə görə Azərbaycanda Türkiyə hərbi bazasının yaradılması nə dərəcədə aktualdır?***

- Hesab etmirəm ki, Azərbaycanda hərbi baza yaranmasına ehtiyac var. Azərbaycanın Türkiyə ilə siyasi-hərbi əlaqələri ən yüksək səviyyədədir.

İki qardaş arasında münasibətlərdə nə mümkündürsə, bizim Türkiyə ilə əlaqələrimiz bu gün elədir. Ona görə də düşünürəm ki, əlaqələrin bir qədər də dərinləşməsi üçün yeni variantlar axtarılacaq.

❑ **Emìl SALAMOĞLU,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 173(7343) 22 avqust 2019

# Pənah Hüseyndən DTK arxivləri ilə bağlı yeni açıqlamalar

## "MTN arxivlərinin məhv ediləcəyi xəbəri verilmişdi"

**Tanınmış vəkil Adil İsmayılov facebookda Azərbaycandakı sovetdənqalma agent şəbəkəsi haqda faktlar açıqlayıb. Vəkil DTK-MTN-dəki arxivlərin kimlər tərəfindən yandırıldığını yazıb. O, yazıda Milli Şuradan arxivlərin kimlər tərəfindən möhürlənməsini qeyd edib.**

Adil İsmayılov qeyd edib ki, İxtiyar Şirin (Əbülfəz Elçibəy hakimiyyəti dövründə baş prokuror), Tahir Kərimli və Çingiz Qənizadə 1992-ci ilin may hadisələrindən dərhal sonra Milli Şuranın qərarı ilə DTK-nın arxivlərini və bəzi şöbələrini möhürləmişdilər: "Belə bir fikir var idi ki, hakimiyyətdə olan AXC liderləri arasında vaxtilə DTK ilə əməkdaşlıq etmiş şəxslər olduğundan, hətta respublika rəhbərliyində mühüm postlar tutan bəzi şəxslər barəsində MTN arxivlərində ifşaedici materiallar olduğundan onlar arxivləri açmağa tələsmir, özlərinə aid olan sənədləri məhv edirlər. Nazir İlhüseyn Hüseynovun televiziya ilə çıxışını, DTK əməkdaşlarının Ali Sovetin binasında tərk-silah edilməsini, çevrilişdən əvvəl nazirliyin rəhbərinin Moskvada olması, Primakovla və Rusiya xüsusi xidmət idarələrinin başqa rəhbərləri ilə danışıqlar apardıqları barədə məlumatlar vardı. Bütün bunlara baxmayaraq, həmin faktların heç biri yoxlanılmadı, bu orqanda işləyənlər barəsində xidməti yoxlama təşkil edilmədi, çevrilişin təşkilində bilavasitə əli olan əməkdaşlar müəyyən edilərək onların hərəkətlərinə qiymət verilmədi".



**A.İsmayılovun yazdıqları ilə bağlı "Yeni Müsavat"a açıqlamasında İxtiyar Şirin bildirib ki, DTK arxivinin qapılarını möhürlədiyi barədə yazılan doğrudur. Arxivin qapısının möhürlənməsinin səbəbi olub:** "Keçmiş DTK-nın arxivlərinin açılması məsələsi illərdir aktuallığını qoruyur. Ona görə də tez-tez ayrı-ayrı şəxslərin bu məsələyə toxunması, keçmişdə baş verənlərlə bağlı yazıları təbiidir. 1992-ci ilin may ayında-Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldiyi zaman DTK arxivləri ilə bağlı məsələlər müzakirə olundu. DTK-nın arxivlərinin Rusiyaya qaçırılması təhlükəsi haqqında çox ciddi siqnallar almağa başlamışdıq. Məlumatlarda Azərbaycan DTK-sının arxivlərindəki materialların Rusiyaya qaçırıldığı barədə deyilirdi. Ona görə də belə bir qərar qəbul olundu ki, DTK-nın arxivləri təcili qapadılsın və bu quruma yeni rəhbərlik təyin olunandan sonra açılması məsələsinə baxılsın. Dövlət katibi Pənah Hüseynə və mənə həvalə olundu ki, DTK-nın arxivlərini öz imzamızla möhürləyək və orada rəsmi işçilərə təhvil verək. Pənah Hüseynlə DTK-ya getdik və arxivlərin qapılarını bağlayıb öz imzamızla birlikdə möhürlədik. Möhürlü qapıları DTK işçilərinə təhvil verdik. Bizim işimiz bununla da yekunlaşdı. Sonra quruma yeni rəhbərlik təyin olundu və arxiv məsələsi Milli Məclisdə də müzakirə olundu".

**Pənah Hüseyn isə dünən məsələ ilə bağlı dəqiqləşmə aparıb və DTK arxivlərini nə üçün möhürlədiklərinə, bu addımlarının qanunauyğun olub-olmadığına aydınlıq gətirib:** "15 may 1992-ci ildə MTN-in kollegiyasının baş verən hadisələrə qarışmaması və konstitusiyaya sadiq qaldığı haqqında qərarı nazir İlhüseyn Hüseynov tərəfindən imzalı, möhürlü şəkildə, nazirin kabinetində, bütün müavinlərinin iştirakı ilə AXC rəhbərliyinə təqdim edildi. 17 mayda günün ikinci yarısında Nəsib Nəsibzadənin mənimlə təcili görüşmək istədiyini dedilər. Nəsib bəy dedi ki, tələbə yoldaşı, o vaxt MTN mərkəzi aparatında işləyən İman adlı MTN zabiti deyir ki, bir qrupun (konkret iki ad çəkilirdi) adamları tərəfindən, binadakıların da bəzilərinin köməyi ilə MTN binası tutulub yandırılacaq və arxivlər məhv ediləcək. Dərhal MTN binasının mühafizəsinin gücləndirilməsi və xarici perimetrdən qorunması haqqında AXC müvafiq qurumuna tapşırıq verildi. Həmin vaxt Ali Sovetin iclası gedirdi. İclasa Yaqub Məmmədov sədrlik edirdi. Mən AXC sədri Əbülfəz Elçibəyə alınan məlumatı və tədbirlərimizi çatdırdım. Bu barədə Yaqub Məmmədova bildirildi. Ali Sovetin iclasına fasilə verildi. Y. Məmmədovun kabinetində məsələ müzakirə edildi. İlhüseyn Hüseynovun milli təhlükəsizlik naziri vəzifəsindən azad olunması barədə fərman hazırlandı. Ali Sovet adından deputatlar İxtiyar Şirin və Tahir Kərimli, AXC İcraiyyə Komitəsinin sədri qismində məndən ibarət tərkibdə rəsmi komissiya yaradıldı, həmin komissiyaya MTN binasının bütün giriş, çıxış və iş otaqlarını, kabinetləri, o cümlədən arxivi möhürləmək səlahiyyəti, bunun üçün Ali Sovetin xüsusi möhürü verildi və biz bunu həyata keçirdik. Yalnız xüsusi hökumət rabitə sistemi (PATS) ATS-nin otağı fəaliyyət göstərmək üçün açıq saxlanıldı. Sülhəddin Əkbər milli təhlükəsizlik nazirinin birinci müavini və Fəxrəddin Təhməzov nazir təyin edildikdən sonra MTN binasında iş rejimi tədricən bərpa edildi. Arxivlərin ehtimal olunan məhvinin qarşısı alındı".

P.Hüseyn sonda vurğulayıb ki, bu möhürləmə məsələsi hələ AXC hakimiyyətə gəlməzdən, İsa Qəmbər Ali Sovetin sədri və o, dövlət katibi olmazdan əvvəl Ali Sovetin qərarı ilə tamamilə qanuni formalarda həyata keçirilib.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İqbal Məmmədovun deputat mandatı alına bilər

## Hüquqşünas: "Bunun üçün əsas iki halda yarana bilər"
## Ağacan Əbiyev: "Biz bu işlərə baxmırıq"

**Deputat İqbal Məmmədova məxsus olduğu deyilən "Relax" istirahət mərkəzində baş verən hadisələr gündəmdən düşmür. Qeyd edək ki, avqustun 16-da istirahət mərkəzində yoxlama aparmağa gələn vergi orqanları və polis əməkdaşları mərkəz rəhbərliyi tərəfindən fiziki zorakılığa məruz qoyulub. Hadisə ilə bağlı hüquq-mühafiə orqanları tərəfindən cinayət işi qaldırılıb, deputatın oğlu və qardaşının oğlu da daxil olmaqla bir qrup şəxs həbs edilib.**

Qeyd edək ki, İ.Məmmədov istirahət mərkəzinin ona deyil, qardaşına məxsus olduğunu açıqlasa da, ictimaiyyət bunun həqiqətəuyğun olmadığı qənaətindədir. Belə ki, Azərbaycanda Milli Məclis üzvlərinin, dövlət məmurlarının biznesə malik olması geniş yayılmış haldır. Bir qayda olaraq ölkə daxilində belə biznes obyektləri yaxın qohumların adlarına rəsmiləşdirilsə də, həm sıravi vətəndaşlar, həm də aidiyyəti dövlət qurumları onların real sahibinin kim olduğunu yaxşı bilirlər. Son vaxtlar bir çox məmur və deputatların xarici ölkələrdə aşkarlanan xeyli sayda biznesinin isə onların öz adlarına rəsmiləşdirildiyi məlum olur.

"Relax"da baş vermis hadisə İ.Məmmədovun deputat mandatının vaxtından əvvəl əlindən alınması ilə nəticələnə bilərmi? Sualı cavablandıran **hüquqşünas Əkrəm Həsənov** "Yeni Müsavat"a dediyinə görə, məlum hadisəyə görə deputat mandatının alınması iki hal üzrə mümkündür: "Azərbaycan qanunvericiliyinə görə, Milli Məclis üzvləri o halda mandatdan məhrum edilə bilər ki, cinayətə yol vermis olsun. Bu halda ortada cinayət faktı var - vergidənyayınma da cinayət əməli hesab olunur. Bir neçə il əvvəl Konstitusiya Məhkəməsinin bir qərarı olub. Mahiyyəti ondan ibarətdir ki, hüquqi şəxsin formal rəhbərinin kimliyindən asılı olmayaraq, faktiki rəhbərinin başqa adam olduğu müəyyən oluna bilər. Yəni formal rəhbər bildirə bilər ki, faktiki rəhbər başqa birisidir və o, həmin şəxsin göstərişlərinə əməl edib. Bunu, əlbəttə, sübut etmək asan deyil. Gərək formal rəhbərlər faktiki rəhbərin üzünə dursunlar. Konkret bu halda "Relax"ın formal rəhbəri desə ki, vergidənyayınmaya İ.Məmmədovun göstərişi ilə yol verilib, onda deputatın səlahiyyətlərinə xitam veriləcək".



**Hüquqşünas deyir ki, ölkə konstitusiyası deputatın sahibkarlıq fəaliyyətini qadağan edir:** "Konstitusiyaya görə, deputat sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul ola bilməz. Burada yalnız pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olunur. Bu o deməkdir ki, hətta vergidənyayınma cinayəti olmasa belə, "Relax"ın faktiki sahibinin İqbal Məmmədov olduğu sübuta yetirilərsə, deputat səlahiyyətlərinə xitam verilə bilər. Bilirsiniz, mənim atam Lerikdəndir, o rayona tez-tez gedib-gəlirəm. O istirahət mərkəzindən əlavə xeyli sayda biznes obyektinin İqbal Məmmədova məxsus olduğu Lerikdə hamı bilir. Yəni bu, heç kimə sirr deyil. Bu baxımdan, hüquq-mühafizə orqanları obyektiv araşdırma aparsalar, bunu sübut etməkdə çətinlik çəkməyəcəklər. Və mənim gözləntim bu obyektivliyin təmin olunması yönündədir. Baş verənlərdə məqsəd yalnız İqbal Məmmədovu cəzalandırmaq deyil, bütün harınlamış deputat və dövlət məmurlarını yerində oturtmaqdır. Kimsə belə sərt formada cəzalanmalıdır ki, digərlərinə də dərs olsun, əvvəla, vergidən yayınmasınlar, ikincisi də dövlət orqanlarının nümayəndələrinə qarşı hörmətsizlik etməsinlər".

**Ə.Həsənovun sözlərinə görə, Azərbaycanda İ.Məmmədov kimi səlahiyyətlərindən sui-istifadə edib vergidən yayınanlar çoxdur:** "Açıqlanan rəqəmlər göstərir ki, söhbət böyük həcmdə vergidən yayınmaqdan gedir. Lakin artıq bu kimi hallara qarşı mübarizə sərtləşib. Hələ ötən il Vergi Məcəlləsinə dəyişikliklər şərh edərkən mən qeyd etmişdim ki, dövlət bu məsələlərdə qətiyyətlidir. Vergi orqanları artıq heç kimə güzəştə getmirlər, hamıya eyni gözlə baxırlar. Bu hadisə göstərdi ki, dediklərim reallaşır. Düşünürəm ki, digərləri də bu hadisədən dərs götürəcəklər".

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bildirir ki, gərək İqbal Məmmədovun işçiləri təmkinli olaydılar, orqan işçiləri ilə dava etməyəydilər.**

**Partiya sədri baş verən hadisənin yaxşı hal olmadığı qənaətindədir:** "Gərək bu insanlar dövləti düşünsünlər. Bir çoxları belə hadisələrdən kasıb təbəqəni dövlətdən narazı salmaq üçün istifadə edirlər. Kərimov Əli, Gültəkin Hacıyeva kimi adamlar belə hadisələrdən yararlanırlar. Eyni zamanda düşmən ölkələr də həmçinin. Mən istəməzdim ki, dövlətimizin ünvanına belə kəskin ifadələr işlədilsin. Mən bu hadisə barədə geniş danışmışam, əlimizdəki məlumatları açıqlayıb istintaqı yönləndirmək istəmirəm. Biz xalq olaraq dövlətdən küsməməliyik, inciməməliyik. Dövlət bizə verilmiş nemətdir. Allah rəhmət eləsin Məhəmməd Əminə, Elçibəyə, Heydər Əliyevə, bu dövləti yaradıb, qoruyublar. İndi bir deputata, bir məmura görə dövlətdən incik düşməməliyik. Bunu etsək sabah qaraçılar kimi küçələrdə qalarıq. Biz bunu fikirləşərək hərəkət etməliyik. Düşünürəm ki, yaxşı hal deyil. Amma deyilənə görə, əks tərəfin də günahları olub, indi müəyyən açıqlamalar verilib".

**Milli Məclisin İntizam komitəsinin rəhbəri Ağacan Əbiyev "Yeni Müsavat"a dediyinə görə, İ.Məmmədovla bağlı komitədə hər hansı müzakirə gözlənilmir:** "Bu hadisənin bizə aidiyyəti yoxdur. Hadisəni hüquq-mühafizə orqanları araşdırır. Biz deputatların Milli Məclisdəki davranışları ilə bağlı məsələlərə baxırıq. Belə hadisələrə biz baxmırıq, hüquq-mühafizə orqanları baxır. Yəni bu, bizim daxili işimiz deyil"...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 173(7343) 22 avqust 2019



# Nursultan dədənin müdrik arqumenti

**Samir SARI**

**Müdrik adam başqadır. İllərin təcrübəsi yığılır-yığılır və axırda, yaşlaşan adam ağıllı və savadlıdırsa, müdrik olur.**

Elə adam var ki, cavanlığı bir zibil olmayıb deyə, qocalığı da fərqli olmur, bir də görürsən, 70 yaşı var, amma nəvəsi yerində uşaqlara qoşulub qumar oynayır və arada “yalançı oğraşdır” deyə cığallıq edir.

Amma yaşlaşdıqca müdrikləşən adamlar da var və onların başında qazaxların Elbaşı təxəllüslü eks-prezidenti Nursultan Nazarbayev gəlir.

Onun hələ on il öncədən sırf Dədə Qorqud dəstiri əlinə qopuz götürüb boy boyladığını əks etdirən bir şəkli vardı. Saz möhtərəmin əlinə, dizinə xub yaraşırdı. Elə o vaxtdan hiss olunurdu ki, adamın yönü dədəliyə doğrudur. Bu gün ona çəkinmədən Dədə Sultan və ya Nursultan dədə adı vermək olar.

Son illər həmişə müdrik-müdrik danışan Elbaşı bu günlərdə belə bir fikir bildirib: “Bu il bizim 28 yaşımız olacaq. Gəlin xatırlayaq, görək, biz hansı sistemdə yaşamışıq, nə olmuşuq, beyinlərimizdə nə olub? Biz gənc dövlətik, gənc demokratiyayıq və ABŞ-ın papağını geyinmək bizə yaraşmır”.

Əlbəttə, 20 il əvvəlki vaxtlarımız olsa, biz onun bu sözünü qılınc-qalxanla qarşılayardıq, deyərdik, ABŞ-ın özünün nəinki 28, hətta 3 yaşı olanda əməlli-başlı seçki-filan keçirirdi, demokratiya bərqərar edirdi.

Amma qəfildən adamın yadına düşəndə ki, ABŞ-ın qurucuları o demokratik seçkiləri ağ adamların arasında keçirir, qara adamları, ümumiyyətlə, insan sinfindən saymır, hinduları isə qırıb-çatıb rezervuarlara doldururdu, onda hiss edirsən ki, yox, bu ölkənin demokratiyasını idealizə eləmək olmaz. O da indiki vaxtına doğru 200 il yol gəlib.

Ötən əsrin 60-cı illərində olimpiya çempionu olmuş boksçu Məhəmməd Əlini ağ adamların olduğu barın qapısında saxlayıb, içəri buraxmayıb, zırın-zırın ağlatmamışdılarmı? Rəhmətliyin hirslənib körpüdən çaya tulladığı qızıl medal hələ də Oreqon çayının dibindədir. Bəs bu, necə demokratiya idi ki, çempionun adicə bara girmək, iki parç pivə hortlatmaq hüququ tanınmırdı?

Bax, Nursultan dədə “ABŞ-ın papağını geyinmək bizə yaraşmır” deyəndə belə şeyləri nəzərdə tutur, əl-əlbət.

Hər millətə öz papağı yaraşır. Necə ki, amerikalılar başlarına Buxara papaq qoyanda pis görünürlər, biz də başımıza uzun silindr qoyanda yaxşı görünmürük. İntəhası, biz uzun illər başımıza rus kepkası qoyduq və yaxşı yaraşdı. Hətta biz rus kepkasını daha da təkmilləşdirdik, böyütdük, onun “aerodrom” tipini yaratdıq və “kişilik atributu”na çevirdik. Sən bizə belə papaqlarla gəl.

Bax, odur, o ölkənin prezidenti Donald Tramp Danimarkaya səfərini təxirə salıb ki, mən sizdən Qrenlandiyanı istədim, vermədiniz, mən də sizin ölkəyə gəlmirəm.

Dünyanı belə adamlar idarə edir. Belə baxanda onun da az yaşı yoxdur, 70-i adlayıb. Trampın tay-tuşlarını orda-burda elçiliyə, qan barışdırmağa, ağsaqqallığa aparırlar, amma bu, hər gün bir ölkəylə, ya da öz ölkəsinin jurnalistləriylə, vətəndaşlarıyla dalaşır. Elə bir gün olmaz ki, misterdən bu cür xəbərlər gəlməsin. Belə adamın demokratiyasını örnək götürmək olarmı? Olmaz.

Ümid edək ki, ABŞ-ın başbilənləri nüvə çamadanını onun əlinə verməyiblər.

Nazarbayev isə başqadır, başa düşür ki, Qazaxıstan gənc dövlətdir, birdən-birə azad seçki keçirsə, düz gəlməz, Dursunbayevin bir hakimiyyətə gələr, gedər, böyüklərin “Diqlas”ını, “Realks”ını, “Riksos”unu möhürlətdirər, deyər, yaramazlar, dövlətə vergi vermirsiniz, ya da az verirsiniz, əslində 30 min verməlisiniz. Onda qanqaraçılıq olar.

Qırğızıstanda elə olmadımı? 30 ildir bir rəhbərin tabeliyində yaşayan qazaxlardan fərqli olaraq, qırğızlar bu 30 ildə 5 rəhbər dəyişiblər, ikisi qaçaqdır, biri türmədədir. Hiss olunur ki, qırğızlar ABŞ papağı qoymaq istəyirlər, amma alınmır.

Nə işdirsə, ABŞ-ın və digər qabağa getmiş ölkələrin papağı türk dövlətlərinin başına olmur. Biz o dövlətlərin avtomobillərini minirik, təyyarələrində uçuruq, kompüterlərini işlədirik, “Ayfon”larında danışırıq, bütün elmi-texniki nailiyyətlərindən yararlanırıq, amma onlar deyəndə ki, “siz də bizim kimi edin, xoşbəxt olun”, deyirik, yox, bizim öz yolumuz var, sizin papağınız bizə lazım deyil.

Nursultan dədə də yaxında deyil ki, bu kimi mətləblərə dair sual verək, cavab alaq.

# Hüseyn Abdullayev şərti cəza ilə azad oluna bilər

## Sabiq deputatın mümkün qədər yüngül cəza alacağı, hətta azad oluna biləcəyi haqda məlumatlar var...

**Sabiq deputat, “Quska” kimi tanınan Hüseyn Abdullayevə münasibətin dəyişməsi haqda xəbərlər var. Sabiq deputatın mümkün qədər yüngül cəza ilə hətta azad oluna biləcəyi haqda da məlumatlar var. Bunun üçün Hüseyn Abdullayev ölkədən çıxmayacağı şərtini qəbul etməlidir.**

Hazırda Bakı Hərbi Məhkəməsində Hüseyn Abdullayevin cinayət işi üzrə proses davam edir. Onunla bərabər anası Zeynəb Abdullayeva, Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Zaur Quliyev və Nazim Əliyevin müttəhimlər kürsüsünə çıxarılıblar. Məhkəməyə hakim Həbib Həsənov sədrlik edir. Sonuncu proses Hüseyn Abdullayevin məhkəməyə gətirilməməsi səbəbindən baş tutmayıb. Bundan 1 ay əvvəlki prosesdə isə məhkəmə istintaqının başa çatdığı elan olunub. Növbəti məhkəmə iclasında prokuror Hüseyn Abdullayevə və digər təqsirləndirilən şəxslərə cəza istəməlidir. Hüseyn Abdullayevə şərti cəza verilməsi də istisna deyil.



Hüseyn Abdullayevin işi üzrə prosesi izləyənlər bilirlər ki, bu ilin aprelində iş materialları məhkəməyə daxil olub və hazırlıq iclasında təqsirləndirilən şəxslərin bir qismi azad olunub. Dövlət Sərhəd Xidmətinin sabiq əməkdaşları Həbib İbrahimov, Zaur Quliyev və Pərviz Kazımovun barəsində istintaq dövründə seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilib. Azərbaycan məhkəmələrində adətən belə qərarlar verilmir. İstintaq dövründə həbsə alınan təqsirləndirilən şəxsləri məhkəmə dövründə çox nadir hallarda azad edirlər. Bu cür yumşalma sonrakı mərhələlərdə də nümayiş etdirilirsə, son nəticə olaraq məhkəmə hökmünə də təsirsiz ötüşmür. Əslində isə DSX əməkdaşlarını ilk gündən, yəni istintaq dövründə də həbs etməyə bilərdilər. Lakin Hüseyn Abdullayevə qarşı qəzəb ona, yaxınlarına bu və ya digər formada kömək etmiş şəxslər barəsində qərarlara da sirayət edib. DSX əməkdaşları Hüseyn Abdullayevin anasına sərhədi keçərkən kömək etməkdə ittiham edilirlər.

Belə iddialar var ki, Hüseyn Abdullayevin işi məhkəməyə daxil olarkən ona münasibət bir qədər mülayimləşib. Hazırda isə Hüseyn Abdullayevin azadlığa çıxması özündən asılıdır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə yaydığı məlumata əsasən, Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində “Araz İNC” MMC-də 1 milyon 436 min manat məbləğində vəsaitin dövlət büdcəsinə ödəməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. Onun barəsində məhkəmə qərarı əsasında həbs qətimkan tədbiri seçilməklə “İnterpol” xətti ilə beynəlxalq axtarış elan olunub. 3 oktyabr 2016-cı il tarixdə Hüseyn Abdullayevə ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılıb.

Təqsirləndirilən şəxs H.Abdullayev Türkiyə Respublikası ərazisində tutularaq 22 aprel 2018-ci il tarixdə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarına təhvil verilib. Bundan başqa, ayrı-ayrı şəxslərin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi “Araz-İnşaat” ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Namiq İsmixan oğlu Babayev və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan “Autist Uşaqların Reabilitasiyasına Kömək” İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib. Hüseyn Abdullayev ittihamla özünü təqsirli bilmir.

Yada salaq ki, Hüseyn Abdullayev parlament üzvü olarkən 2007-ci ildə hökumətin hesabatı zamanı Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ilə mübahisə edərək əlbəyaxa olub və onun şikayəti əsasında həbs edilib. Hüseyn Abdullayev 2 il şərti cəza alaraq məhkəmə salonundan azad ediləndən sonra xarici ölkəyə köçüb. Son illər o, sosial şəbəkələrdə Azərbaycan hakimiyyətini sərt tənqidi ilə tanınırdı.

**❑ E.HÜSEYNOV**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019

**İyulun 24-də qəzaya uğramış Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyevin qayınatası, sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli kürəkəninin dəfnindən bir gün öncə-avqustun 20-də siyasi partiyalara və siyasi qruplara müraciət ünvanlayıb. Müraciətində Q.Hüseynli siyasi partiya üzvlərindən və siyasi qruplardan vida mərasiminə qatılmamağı xahiş edib: "Ailəmiz çox çətin, ağır və kövrək bir dönəmdən keçir. Ailəmizin, hətta xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi divident əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən artıq dərəcədə xahiş edirik ki, sabah keçiriləcək vida mərasiminə qatılmasınlar. Rica edirəm ki, bu ağrılı günümüzdə bizi başa düşsünlər".**

# Qaragüruhun Qabil Hüseynliyə hücumuna sərt reaksiyalar



**Azər Ayxan:**
"Görünür, onda informasiya olub ki, dəfn mərasimində kimsə nəsə planlaşdırıb"



**Aynur Camalqızı:**
"Dərdli və yaşlı bir insanı təhqir etmək, hətta bir az da irəliyə gedərək şəhid pilotumuz barədə də artıq-əskik danışmaq böyük əxlaqsızlıqdır"



**Nicat Dağlar:**
"Bu adamları başqalarının faciəsindən yararlanaraq xal toplamaqdan başqa heç nə maraqlandırmır"

Q.Hüseynlinin müraciəti siyasi düşərgədə və sosial şəbəkə iştirakçılarında birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə bu çağırışa görə onu qınayanlar da, hətta ağır sözlər işlədənlər də olub və iqtidar-müxalifət nümayəndələrinin məhz belə mərasimlərdə birlik nümayiş etdirməsinin vacibliyi vurğulanıb.

Bəs Q.Hüseynlini məlum müraciətinə görə sosial şəbəkədə topa tutmaq, tənqid və hətta təhqir etmək ədalətdirmi?

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan bildirib ki, Qabil Hüseynlinin Rəşad Atakişiyevin dəfn mərasimi ilə bağlı çağırışı ona Elmar Hüseynovun dəfn mərasimindən öncəki vəziyyəti xatırlatdı:** "O vaxt Əli Kərimli təklif edirdi ki, Elmarın tabutunu götürüb bütün şəhəri gəzdirsinlər, xalqı ayağa qaldırsınlar. Lalə Şövkət və bir neçə digər partiya sədri də bu təklifi dəstəkləyirdilər. Elmarın ölümü müxalifəti "diriltmişdi". İsa Qəmbər isə ilk gündən bu qaragüruha qoşulmadı. Və düz etdi. Meyit qalmışdı ortada, iqtidarla müxalifət arasında qırğın gedirdi. Axırda Elmarın atası Sabir Hüseynov çıxdı tribunaya, dedi, imkan verin, övladımı dəfn edim, oğlumun cənazəsiylə kimsə siyasi bazarlıq etməsin. Görünür, Qabil müəllimdə informasiya olub ki, dəfn mərasimində kimsə nəsə planlaşdırıb. Ya da planlaşdıra bilər, gərginlik yaşanar. Adam ailəsinin üzləşdiyi faciədən kimlərinsə sui-istifadə edə biləcəyindən narahat olub. Buna görə onu indiki vaxtında qınamaq, hətta təhqir etmək yolverilməzdi".

**"Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı isə "Yeni Müsavat"a bildirib ki, sosial şəbəkələrdə bu yöndə gedən müzakirələri ürək ağrısı ilə izləyir və təəssüf edir:** "Hörmətli Qabil Hüseynli səhvmi etdi, düzmü etdi, bu barədə danışmaq istəmirəm. Adam doğmasını, əzizini itirib. Üstəlik, itirdiyi doğması şəhiddir, hərbçidir. Bəlkə müxalif düşərgədən kimlərsə ona dəfn mərasimində hansısa narahatçılıqların baş verə biləcəyini deyib. Bəlkə sadəcə, o özü bir ata kimi, ağsaqqal kimi xoşagəlməz situasiya yarana biləcəyini ehtimal edib, əndişələnib və belə bir açıqlama verib. Qabil bəyin yerinə danışmaq çox çətindir. Amma mən bir şeyi əminliklə deyə bilərəm ki, dərdli adam, doğmasını, əzizini, özü də belə faciəli şəkildə itirmiş adam məntiqsiz də danışa bilər, lazım olmayan fikir də işlədə bilər. Yenə deyirəm, bu, sadəcə, mənim mülahizələrimdir, bəlkə həqiqətən hansısa əsası olub, bəlkə də olmayıb, bilmirəm. Bütün hallarda dərdli və yaşlı bir insanı təhqir etmək, aşağılamaq, hətta bir az da irəliyə gedərək şəhid pilotumuz barədə də artıq-əskik danışmaq böyük əxlaqsızlıqdır. Belə görünür ki, qaragüruh üçün baltalamaq, linç etmək, təhqir etmək, söymək qədər asan heç nə yoxdur. Heç bir komplekssiz bunu edənlər var. Məlum düşərgənin səviyyəsini, səviyyəsizliyini görmək üçün dünəndən başlanan kampaniyanı müşahidə etmək kifayərdir. Bəzi müxalif partiyaların liderləri az qala Qabil Hüseynlini "vətən xaini" elan etmək istəyir. Və özləri də fərqinə varmadan bu təhqirlərlə sübut edirlər ki, Qabil Hüseynli əslində haqlıdır. Şəhidimizi bəhanə edərək o mərasimi siyasiləşdirmək cəhdləri ola bilərdi. Mərhum jurnalist həmkarımız Elmar Hüseynovun dəfn mərasimini xatırlatmaq yetər. Və ya 20 Yanvarda Şəhidlər Xiyabanında müxalifətçilərin polislərlə qarşıdurmasını yadımıza salaq. Kim istəyər ki, doğmasının dəfnində bunlar təkrarlansın? Təəssüf ki, bu münasibətlər Azərbaycanda siyasi mədəniyyətin formalaşmasına imkan vermir. Təəssüflər olsun ki, ölkədə hələ də siyasi mədəniyyət oturuşmayıb. Müxalifətçi ilə iqtidaryönlünün salamlaşmasını az qala vətənə xəyanət sayırlar. Sonra da iddia edirlər ki, yas mərasimində iştirak etməyə iqtidar-müxalifət məsələsinin nə dəxli? Əvvəl bir nümunə göstərmək lazımdır ki, yasda, ya da toyda - hər ikisi mərasimdir - siyasi mənsubiyyətindən və dünyagörüşündən asılı olmayaraq, yanaşı dayana, yanaşı addımlaya, həmrəylik nümayiş etdirə bilərik. Ondan sonra bir atanı, bir ağsaqqalı ittiham etmək olar ki, "yasa gəlməyin" nə deməkdir. 2000-ci ildə mərhum Əbülfəz Elçibəylə vida mərasimini də yəqin ki, hamı xatırlayır. Belə görünür ki, ölkədəki bir çox siyasi qüvvələr hələ də o illərdə qalıblar. Bir addım da irəliyə doğru inkişaf yoxdur".

**Jurnalist Nicat Dağlar isə bildirib ki, təyyarə qəzası, pilotumuzun şəhid olması kimi ağır hadisə ətrafında siyasi şou yaradanlar, Qabil Hüseynlini təhqir edib, barəsində aşağılayıcı statuslar paylaşanlar heç fərqinə də varmırlar ki, bu adam faciə yaşamış ailənin böyüklərindən biri, qızı ərsiz, nəvələri atasız qalmış adamdır:** "Bu gün Qabil bəyi söyənlərdən hansı biri onun sahildə dayanıb xəbər gözlədiyi, Rəşadın tək bir ayağına sığındığı vaxtlarda yanında dayandı? Kim gedib şəhid balasının başını sığalladı? Qapısını döyüb ailəsinə quruca təsəlli verən oldumu? Olmadı! Əvəzində ağır faciə üzərindən siyasi divident qazanmağa çalışdılar. Gözü yaşlı insanların ah-naləsinə qulaq vermək belə istəmədilər. Hər gün bir tamaşa qurub, hadisəni siyasi maraqları daxilinə şərh etdilər. Bu adamları başqalarının faciəsindən yararlanaraq xal toplamaqdan başqa heç nə maraqlandırmır. Bu həvəs artıq manyakal həddə çatıb. Yəni doğrudanmı ölü yiyəsinin narahatlığını anlamaq çətindir? Ailə istəməyib ki, şəhidin nəşi axtarılan günlərdə siyasi mərəkə qoparanlar dəfn mərasimini də siyasi aksiya meydanına çevirsinlər. Bəlkə elə eşitdikləri, bildikləri olub?

Qabil Hüseynlini söyənlərdən soruşsan ki, şəhid zabitlərimiz Raquf Orucovun, İlqar Verdiyevin və s. ailəsindən xəbəriniz varmı? Gözlərini döyəcəklər".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, şəhid ailəsini və onların xahişini nəzərə alaraq AĞ Partiya olaraq vida mərasimində iştirak etməyiblər:** "Şəhidi ilə vidalaşmaq, onu son mənzilə yola salmaq onun uğrunda şəhid olduğu xalqın, onun hər bir nümayəndəsinin haqqıdır. Bunun qarşısını almağı uyğun hesab etmirəm. Ancaq bu məsələdə mən istər şəhidin ailəsinin, istərsə də Qabil bəyin tənqid olunmasını da uyğun hesab etmirəm. Xalq harada etiraz mitinqi etməyi, harada isə sükutla şəhidini son mənzilə yola salmağı gözəl bilir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Şəhid cənazəsini siyasi alət etmək istəyənlərin məkri...



**Elşad MƏMMƏDLİ**
elshad1978@gmail.com

**Azərbaycan dəyərli bir oğlunu - şəhid olan pilot Rəşad Atakişiyevi Vətən torpağına uğurladı. İlk günlərdə ailəsinin, yaxınlarının və Azərbaycan xalqının bir gözləntisi vardı ki, Tanrı möcüzə göstərəcək, Atakişiyev sağ tapılacaq. Lakin günlər keçdikcə insanlarımızın bu ümidi, heç olmasa onun nəşinin tapılması arzusu ilə əvəzləndi. Nəhayət, 20 avqustda qəhrəman pilotumuzun cansız bədəni Xəzərdən tapılaraq, çıxarıldı...**

21 avqustda vida mərasimi idi R.Atakişiyevlə. Son mənzilə yola salındı...

Bundan bir gün öncə Rəşadın qayınatası, politoloq Qabil Hüseynlinin bir çağırışı oldu. Professor acizanə şəkildə radikal müxalif qüvvələrə səsləndi. Sitat: "...Ailəmizin, hətta xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi divident əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən artıq dərəcədə xahiş edirik ki, vida mərasiminə qatılmasınlar. Rica edirəm ki, bu ağrılı günümüzdə bizi başa düşsünlər".

Bundan sonrakı açıqlamasında Qabil bəy dərdə şərik olmaq istəyənlərin yas məclisinə, 3, 7 mərasimlərinə qatılmağa dəvət edib.

Bir tərəfdən qızını, bir tərəfdən nəvələrini, bir tərəfdən özünü ovundurmağa çalısan bir adam təsəvvür edin... Bu durumunda isə məlumat alır ki, hansısa qüvvələr dəfn törənində, vida mərasimində siyasi dividentlər qazanmaq üçün nələrsə planlaşdırırlar. Tamamilə mümkündür və belə nümunələri biz dəfələrlə görmüşük. Mərhum Elmar Hüseynovun dəfni zamanı Əli Kərimli başının dəstəsi ilə cənazəni az qala jurnalistlərin, mərhumun doğmalarının əlindən alıb, paytaxt küçələrində gəzdirmək təklifində bulunmuşdu. Bu təxribatın qarşısını jurnalistlər və dövlət qurumları çətinliklə almışdılar...

Bu baxımdan, Q.Hüseynlinin timsalında, mərhum pilotun yaxınlarının qərarını başa düşmək mümkündür. Dövlətə xidmət edən birinin cənazə törənini dövlətə qarşı mərasimə çevirmək cəhdlərinin qarşısı, əlbəttə, çağırışlarla alınmalı idi. Ora qarşıdurma üçün gəlmək istəyənləri mərasim zamanı deyil, daha əvvəl önləmək zərurəti vardı... Fərz edək ki, məlum çağırış edilməmişdi, ön tədbirlər görülməmişdi və mərasim zamanı hansısa təxribatçılar siyasi şüarlar səsləndirməyə, aksiya keçirməyə başlamışdılar; hüquq-mühafizə orqanları da onları neytrallaşdırmaq zorunda qalmışdı, erməni dəyirmanına su tökənlər də bu videoları çəkib paylaşırdılar... Təsəvvür edin, nə durum yaranardı?!

Ola bilsin ki, Qabil bəyin çağırışını kimlərsə doğru dərk etməyib, onu da qəbul etmək mümkündür ki, daha həssaslıqla bir çağırış etmək, hamını məhz elə o radikal təxribatçıların mümkün cəhdlərinə qarşı birləşməyə səsləmək də olardı. Amma öncə düşünün - ailə və Qabil bəy yas içərisindədir, oturub kiminsə xətrinə dəyməmək üçün ütülü cümlələr düşünmək zamanı da yoxdur...

Fakt isə odur ki, nə qədər acı da olsa, ölkəmizdə ən ağrılı günlərimizdə özlərinin məqsədlərini önə çəkməyə çalışan qüvvələr hər zaman olub və indi də mövcuddurlar. Atakişiyevin şəhid olmasından, onun dəfn törənindən siyasi məqsədlər üçün istifadə etmək istəyənlərin mövcudluğu Q.Hüseynlinin çağırışına reaksiyalardan da bəlli olurdu... Dərdli bir adamı təhqir edənləri, iyrəncliyə baş vuranları da müşahidə etdik. Bu reaksiyalar bəzilərinin daxili aləmini də açıb ortaya qoymuş oldu. Bütün hallarda insanların ölümündən siyasi məqsədlər üçün istifadə etmək nə cəmiyyət tərəfindən normal qarşılana bilər, nə də dinimizə uyğundur.

Digər tərəfdən, Avropadakı bütün agentura şəbəkəsi inqilab bağırdığı, bütün dəyərləri ayaqlar altına atdığı, ən tərbiyəsiz şəkildə, söyüşlə davrandığı, təxribat çağırışları etdikləri, cəmiyyətdə nifrət yaratdığı bir vaxtda onlara bağlı olan qrupların pilotumuzun dəfn mərasimində hansısa xoşagəlməz cəhdlər etməyəcəyinə təminat yox idi...

Çox maraqlı bir məqam da odur ki, belə bir situasiyada bəzi səriştəsiz, siyasi liderlər, o cümlədən də İlqar Məmmədov kimiləri, onlarla həmahəng olur. Liderliyə iddia etməyən, radikal düşüncəsi olan sıravi kəslər bir yana, İ.Məmmədov kimi dəyərlərdən dəm vuran birinin yazdıqlarına baxın və görəcəksiniz ki, Qabil bəy nə qədər haqlı imiş. İ.Məmmədov R.Atakişiyevə dair həmin statusunda Azərbaycanı Liviyaya bənzətməklə qafasını, yanaşmasını və ölkəni xaos içində görmək arzusunu ifadə etmiş olub əsasən. Nifrət püskürür bu adamlar... Ən ağır günümüzdə də... Vətən, şəhid məsələsində də öz siyasi ambisiyasından çıxış edir.

Və bunlar heç bir məntiqə sığmadığı halda, məlum prosesdə hakimiyyəti də hədəfə alıblar. Deməli, məkr çox böyükdür...

Belə bir reaksiyalar və radikal qrupların əvvəlki təcrübələri, üstəlik də Avropadakı agentura şəbəkəsinin istənilən situasiyada cəmiyyəti qarşıdurmaya səslədiyi faktları ortada varkən Q.Hüseynlinin, şəhidin ailəsinin davranışını anlamayanların, hakimiyyətə kəmfürsətcəsinə hücum edənlərin özləri qınanmalıdır.



# Məsuliyyətsiz hərəkətlər

Zamin HACI
zaminhaci@gmail.com

"Bir müddət dost kimi gəzdik yanaşı,
İncitdim qəlbini, mən oldum naşı.
Sənsiz, ey gözəlim, bağrımın başı
Oldu dilim-dilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün".
*(İslam Səfərli)*

**"Apple" şirkətinin müdiri Tim Kuk Bakı bulvarının şəklini özünün sosial şəbəkə hesabında paylaşıb, altından da yazıb ki, kaş iş-güc imkan verəydi, səydəş-səydəş adamlar gündə məndən təzə "Ayfon" modeli istəməyəydi, gedib bu qəşəng yerdə əyləşərdim, pürrəngi çaydan içərək mavi Xəzərə dalardım. Yəqin bir azdan biz Kuk müəllimi AzTV ekranlarında hansısa söyüdün budağını yoluşdurub şeir oxuyan vəziyyətdə görərik.**

Bakı polisi isə evlərdən birində zəncirlənmiş uşaq aşkara çıxarıbdır. Deyir uşağın anası səhərdən axşamacan hansısa müəssisədə eşşək kimi işləməyə məcbur imiş, uşağa da baxan yoxdur, məcbur olurmuş zəncirləsin, getsin. Bu da ölkəmizdəki humanitar islahatlara ziddir, heç vaxt müxalifətçilərin qandallanıb məhkəməyə aparılmasını görməmişik, bəs sən niyə uşağı zəncirləyirsən? Bir dəfə mən televizorda hətta qatilin əli-qolu açıq intervü verdiyini görmüşdüm. Otaqda AzTV kamerası və müxbirdən başqa heç kəs yox idi, qapını açıb qatili kamali-ədəblə içəri buraxdılar, o da vətənpərvər açıqlamalar verib çıxıb getdi. Deməli, işə gedən analar öz uşaqlarını tam arxayın şəkildə AzTV qarşısında buraxıb yox ola bilərlər. Sən evə qayıdana qədər televiziya o uşağa elə təlim-tərbiyə verər, heç tanımazsan. Görərsən qarşokun üstündə bir milli qəhrəman oturubdur.

Sevindirici haldır ki, axırıncı zəncirlimiz də azad oldu, ölkəmizdə demokratiya, azadlıq tam qələbə çaldı. Biz azad ruhlu xalqıq, bizi zəncirləmək zatən çox çətindir. Ümidvaram Rüstəm müəllim Milli Şuranın sədri Cəmil müəllimlə birgə "Zəncirlənmiş Prometey" adlı təzə filmə imza atarlar, hökumət də onlara əməkdar incənəsət xadimi adı verər. Ara yerdə nə oldusa yazıq Ayaz müəllimə oldu. Hökumət çəkdiyi kinonu əlindən almışdı, bu bəs eləmədi, indi də Rüstəm İbrahimbəyovu amnistiyaya salıblar, Ayaz Salayevin təşkilatı qalıb küncdə. Məncə, o da Əli Kərimli ilə yaxınlaşsın, Milli Şuranın qabaqdan gələn seçkilərdə namizədi Ayaz Salayev olsun. Bəlkə bu dəfə alındı. Üstəlik, Müsavatın da əvvəlki gücü yoxdur çəm-xəm eləsin. Hətta biz Əkrəm Əylislini təzədən deputat seçsək lap yaxşı olar. Balaca ölkəyik, hamımız bir-birimizə arxa-dayaq olmalıyıq. Bizim Qarabağ dərdimiz vardır.

Söz Qarabağdan açılmışkən, bu yaxında Xarici İşlər Nazirliyimizin maraqlı açıqlamasını oxumuşdum, deyir Ermənistan özünü çox məsuliyyətsiz aparır. Doğrudan da, bunlar bizim torpaqları işğal eləməklərinə baxmayaraq özlərini orada-burada məsuliyyətsiz aparırlar. Birdən görürsən Cıdır düzündə eşşək ötüşdürmə yarışı elədilər, ya da Xankəndində dünya ermənilərinin idman turnirini qayırdılar. Tam məsuliyyətsiz addımlardır. Guya biz istəsək Xankəndində Birinci Avropa Oyunları keçirə bilməzdik? Sadəcə, adamın gərək məsuliyyəti olsun. Yaxud bu yaxında başlayıblar Şuşadakı məscidi təmir eləməyə. Bəlkə yandırıb dağıtdığınız Füzulini, Ağdamı, Qubadlını da təmir eləyəsiniz? Belə məsuliyyətsiz təmir heç yanda görünməyibdir. Allah bilir o məscidin təmirində nə qədər yeyintiyə yol verilmişdir. Axı ortada tender elanına rast gəlməmişik. Məsuliyyətləri olsaydı dövlət qəzetlərimizdə məscidin təmiri üzrə tender elanı yerləşdirilməli, hər kəsin orda iştirak hüququ təmin olunmalıydı. Hələ o Paşinyanın "Qarabağ bizimdir, bizim olacaq" söhbəti nə idi, sən canın!? Tam səfeh, səydəş, məsuliyyətsiz bəyanatdır. BMT-nin yeddi min yeddi yüz yetmiş yeddi qətnaməsi var bu temada, hamısında da yazılıb ki, ya Qarabağ, ya ölüm, başqa yolu yox artıq. Əlbəttə, demokratiya qurbanlar tələb edir.

İndi söz əlaqədar təşkilatlarındır.




# "Ermənistan" boykot edilir - Moskvada anti-erməni kampaniyası

## Erməni iş adamları Rusiya müxalifətinin qəzəbinə gəldilər; Rusiya da mənfur qonşular üçün arzuolunmaz məkana çevrilir; Solovyev kimi qatı erməni havadarlar dərhal əl-ayağa düşdülər...

**"Məxməri inqilab"dan sonra İrəvan-Moskva əlaqələri hələ də əvvəlki yüksək səviyyəsinə çatmayıb. Əksinə, Rusiya-Ermənistan münasibətlərində kataklizmlər davam etməkdədir. Bu dəfə ermənilərin kütləvi köç elədiyi Rusiyada ermənilərə qarşı narazılıq baş qaldırıb. Söhbət Moskvanın Tver küçəsindəki "Ermənistan" restoran-mağazası ətrafında cərəyan edən hadisələrdən gedir.**

"Yeni Müsavat" yada salır ki, ötən ayın 27-də ərazidə müxalifətçi siyasi lider Aleksey Navalnının təşkilatçılığı ilə Rusiya müxalifəti hökumətlə razılaşdırılmayan izdihamlı etiraz aksiyası keçirmişdi. Aksiya Rusiya Şəhər Duması üzvlüyünə namizədliyi qanunsuz şəkildə ləğv edilmiş müxalifətçilərin hüquqlarının bərpasına həsr olunmuşdu. O zaman mitinq-yürüş hökumət qüvvələri tərəfindən zorakılıqla dağıdılmış, çoxsaylı yaralananlar olmuşdu. Eyni zamanda kütləvi həbslər aparılmışdı.

*****

Həmin hadisələr və toqquşmalar zamanı "Ermənistan" da ziyan görüb - maddi planda. Belə ki, restoran-mağaza bağlı qaldığından ziyana düşüb. O səbəbə onun sahibləri, "Ankor" MMM-nin erməni rəhbərləri məhkəmədə Aleksey Navalnıya, Moskva Şəhər Dumasına namizədliyi qeydə alınmayan İlya Yaşin və Lyubov Sobola qarşı təzminat davası açıb. İddiaçı tərəf aksiya günü restoranın bağlanması qarşılığında təzminat kimi 550 min rubl tələb edir. Artıq məhkəmə iddianı icraata qəbul edib.

**Hər şeydən də bundan sonra başlayıb. Qəzəblənən Moskva sakinləri "Ermənistan" restoran-mağazasını kütləvi boykota başlayıblar. Dünyanın tanınmış siyasi rejissorlarından biri olan Vitali Manski bu xüsusda açıq şəkildə obyektin boykotuna çağıraraq, öz facebook səhifəsində yazıb:** "Mənim ayağım bir də heç vaxt Tver-17-dəki "Ermənistan" kafe-restoranın kandarına belə dəyməyəcək. Bu, mənim evimin yanıdır. Mən orada illərlə alış-veriş edirdim, işlə bağlı görüşlərim olurdu. Ancaq "Ermənistan" 27 iyuldakı aksiya zamanı ziyana görə (!!) qeydə alınmamış namizədlərə qarşı təzminat davası açdı. Düz sözümdür, çox istərdim ki, "Ermənistan"ın sahibləri gerçəkdə əldən çıxmış gəlirin nə olduğunu anlasınlar. Ümid edirəm ki, bu biznesmenlərə qarşı belə bir addımı təkcə mən atmayacağam".

Həqiqətən də bu çağırışdan sonra restoranın boykotu başlayıb və daha böyük ziyanla işləməyə başlayıb. Bunu görən ermənilərin Rusiya KİV-lərindəki ənənəvi təbliğatçıları - teleaparıcı Vladimir Solovyev və RT-nin baş redaktoru Marqarita Simonyan hərəkətə keçiblər. Simonyan müxalifətçiləri kəskin tənqid edib və müəssisənin müdafiəsinə qalxıb. Onu da deyib ki, "ora əsasən milli yeməklər üçün darıxan ermənilər gedir". Solovyov da "Ermənistan"ın tərəfini tutub. Qeyd edib ki, "müxalifətçilərin istifadə elədikləri üsullar xaricdən gəlib və gülməli görünür".

*****

Baş verənlərdən, yeni aksiya təşkilatçılarına qarşı təzminat iddiası qaldırılmasının ardınca kütləvi tənqidin artmasından sonra "Ermənistan" restoranı facebook-dakı səhifəsinə girişi məhdudlaşdırıb. "Yeni Müsavat" xəbər verir ki, bu barədə "Dojd" telekanalı məlumat yayıb.

"Kommersant" nəşri isə qeyd edib ki, neqativ şərhlər və statuslar restoranın reytinqini darmadağın edərək, 5 baldan 2 bala endirib. Şikayətlərin əksəriyyəti xidmətə aid olub - keyfiyyətsiz yeməklər, hay-küy, çirk, həmçinin savadsız və ədəbsiz xidmət personalı ilə bağlı olub. Bəziləri isə yazıb ki, restoran "Rosqvardiya"ya xidmət göstərsə, yaxşıdır.

*****

İlk baxışda "Ermənistan" restoranı ətrafında yaşananlar lokal olay təəssüratı bağışlaya bilər. Lakin geniş planda bu, Rusiyada ermənilərə qarşı ovqatdan xəbər verir və cəmiyyətdə anti-erməni ovqatını körükləyir. Çünki hazırda paytaxt Moskvada siyasi müxalifət tərəfdarları, yeni hakimiyyətdən narazılar daha çoxdur, nəinki hakimiyyət pərəstişkarları. Son rəy sorğuları da göstərir ki, prezident Vladimir Putinin reytinqi Moskva başqa olmaqla, iri şəhərlərdə və meqapolislərdə aşağıdır.

Yəni məsələdə tipik erməni xisləti, ermənilərin hər yerdə öz "dəri maraqları"ndan çıxış etməsi kimi mənfəət güdmə mahiyyəti qabarmış olur. Görünür, bu və digər məqamları nəzərə alan Vladimir Solovyev kimi qatı ermənipərəst havadarlar dərhal əl-ayağa düşüblər...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Vladimir Putinin Rusiyada hakimiyyətə gəlişinin 20 illiyi yaxınlaşır. 20 ildir Rusiya prezidenti Vladimir Putin dünyada ən populyar, haqqında ən çox yazılan lider statusunu hələ də qoruyub saxlayır. SSRİ dağıldıqdan sonra Rusiya Federasiyasının ikinci prezidenti olan Vladimir Putini bəziləri rus xalqının bəlası, bəziləri isə xilaskarı adlandırır. Bir çox ekspertlər isə Putinin yalnız bir məqsədinin olduğunu bildirirlər: böyük Rusiya yaratmaq və bu dövlətin başında durmaq.**

# Putin - Rusiyanın xilaskarı, yoxsa...

## Politoloq: "Putinin indiki siyasəti ölkəni parçalamağa aparır, çünki..."



Onun bu məqsədi hər şeydə özünü göstərir - Çeçenistan hadisələri, Ukraynada baş verən kataklizmlər, qaz vasitəsilə manipulyasiya, İranla olan xüsusi münasibətlər, Türkiyə ilə münasibətlər, Avrasiya İttifaqı adlı "Yeni SSRİ" adlandırılan ittifaq qurması, Suriya məsələsində direnişi və digər böyük masştablı davranışları. KQB-nin keçmiş zabiti Vladimir Putin ilk dəfə 2000-ci ilin martında prezident seçiləndən sonra onun qarşısında duran əsas vəzifə Rusiyanı Boris Yeltsindən miras qalan xaosdan xilas etmək idi...

Bəs Putin Rusiya üçün xilaskar sayılmalıdırmı? O, hakimiyyətə gəlməsəydi, Rusiya dağılardımı? İndi necə, Putin olmasa, Rusiya dağılarmı?

Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a bildirdi ki, Rusiya sabit dövlət olmadığına görə bu ölkənin hər zaman xilaskarlara ehtiyacı olub: "Vladimir Putin Rusiyanı çöküşdən xilas etdi. Rusiyanın dirçəlişi, dünya nizamında rolunun artması Putinin hakimiyyətə gəlişi ilə başlandı. Boris Yeltsin Rusiyası demək olar ki, Qərblə normal əlaqələri malik idi. Amma ölkədə siyasi, iqtisadi durum getdikcə çətinləşdirir, şimali Qafqazda müharibə Rusiyada subyektlər arasında mərkəzdən qaçma meyllərinə səbəb olurdu. Bu da Rusiyanın parçalanmasına, çöküşünə gətirirdi. Belə bir məqamda Putinin hakimiyyətə gəlişi, şimali Qafqazda müharibəni bitirməsi, mərkəzdənqaçma meyllərinin qarşısını alması, mərkəzi hakimiyyətin möhkəmlənməsi, Qərblə 2008-ci ildən başlayaraq "soyuq müharibə"yə getməsi Rusiyanı parçalanmadan xilas etdi. Putin demək olar ki, Rusiyanın dünya miqyasında rolunu artırmağı bacardı, ikiqütblü dünya nizamının formalaşmasına gətirib çıxaracaq proseslərə start verdi. Qərb dəyərlərinə qarşı bununla paralel kiberhücümlar, informasiya müharibəsi apardı. 20 il ərzində Putin Qərbi Rusiya ilə hesablaşmağa sövq etdi. SSRİ-nin dağılmasından sonrakı 1990-cı illərdə dünya siyasətində sözü eşidilməyən Rusiyanı Putin dünyada söz sahibinə çevirə bildi. Bu, Rusiyanın xilası idi".

**Politoloqun sözlərinə görə, ümumiyyətlə, Putin elə bir məqamda hakimiyyətə gətirildi ki, həqiqətən Rusiya zəifləyib çökəcəkdi:** "Hazırda isə Putinin siyasəti 2000-ci illərin əvvəlki illərindəki siyasəti ilə adekvat deyil. Putinin indiki siyasəti ölkəni parçalamağa aparır. Çünki qloballaşan dünyada gənc ruslar Putinin sərt sistemi ilə razılaşmır. Daha mütərəqqi və demokratik Rusiya görmək istəyirlər. Putinin Qərb demokratiyası ilə müharibəsi ölkənin zəifləməsinə aparır. İndiki siyasət Rusiyanın inkişafına deyil, zəifləməsinə aparır. Bir yerə qədər Putinin sərt siyasəti ölkəni nüfuzlu duruma gətirdi. Hazırkı şərtlərlə aparılan siyasətin isə perspektivi olmayacaq. Hesab edirəm 2024-cü ildən sonra Rusiyaya yeni lider lazımdır ki, dünya üçün örnək olan demokratik sistem qursun. Bu gün Moskvada olan etiraz aksiyaları məhz ölkənin xilasına və inkişafına hesablanıb. İndiki Rusiya cəmiyyəti və içindən çıxan demokratik liderlər ölkəni daha da irəliyə aparmaq iqtidarındadır. Ona görə də post-Putin dövrünə Rusiya ciddi hazırlaşır. Vətəndaşlar artıq Putin sistemini növbəti dönəmdə görmək istəmirlər. Bunu sorğu anketləri də deyir. Rusiyada etiraz aksiyaları yeni siyasi sistemin qurulmasına gətirəcək. Putinin dağılmaqdan xilas etdiyi Rusiyanın indi də demokratikləşməsinə ehtiyac var".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# "Qazaxıstana Amerika demokratiyasının "papağını taxmaq" alınmayacaq" - Nursultan Nazarbayev

**Qazaxıstanın birinci prezidenti və "Nur Otan" Partiyasının sədri Nursultan Nazarbayev əmindir ki, Qazaxıstana Amerika demokratiyasının "papağını taxmaq" mümkün olmayacaq. APA-nın "RİA Novosti"yə istinadən xəbərinə görə, N. Nazarbayev demokratiyanın inkişafı üçün zamanın lazım olduğunu bildirib.**

"Bu il bizim 28 yaşımız olacaq. Gəlin yada salaq, biz kim olmuşuq, yansı sistemdə yaşamışıq? Bəs indi nə var? Yer və göy! Düzdür? Biz gənc dövlətik, gənc demokratiyayıq və bizə Amerika papağı taxmaq yaraşmaz. Bunun üçün zaman lazımdır, Avropadakı demokratiya üçün inkişaf etmiş cəmiyyət lazımdır", - N. Nazarbayev "Nur Otan" Partiyasının siyasi şurasının iclasında deyib.

Onun sözlərinə görə, orta təbəqəni inkişaf etmək zəruridir.

# Doğrudanmı Putin dalandadır?..



**Hüseynbala SƏLİMOV**

**Biz astroloji "proqnoz"lara inanmırıq və dünyanın aparıcı siyasətçilərinin astroloji göstəriciləri haqqında təsəvvürümüz də yoxdur.**

Amma bu il iki siyasətçi üçün elə də uğurlu olmadı - bəli, söhbət Türkiyə və Rusiya prezidentləri haqqındadır.

Sonuncu munisipal seçkilərə qədər prezident R.T.Ərdoğanın partiyası faktiki olaraq məğlubiyyət nə olduğunu bilmirdi, necə deyərlər, bir qələbədən digərinə gedirdi və hətta ən tənqidi yönümlü, müxalifətçi sosioloqun və ya politoloqun ağlına belə gəlmirdi ki, hazırkı prezidentin siyasi qürubu haqqında danışsın.

Formal olaraq onun partiyası sonuncu munisipal seçkiləri də uddu, amma əksər böyük şəhərlərdə, xüsusən də İstanbulda, qələbə çələngləri müxalifətə qismət oldu.

Odur ki, indi nəinki R.T.Ərdoğanın siyasi karyerasının qürubu haqda danışır və mühakimə yürüdürlər, hətta qeyri-peşəkar analitik kimi görünməkdən ehtiyat etməyərək növbəti prezident seçkilərində onun potensial rəqiblərinin adlarını da çəkirlər.

Nə qədər qəribə olsa da, təxminən oxşar mənzərə Rusiyada da müşahidə olunur; Moskva Şəhər Dumasına seçkilər R.T.Ərdoğanın dostu prezident V.Putin üçün əsl baş ağrısına çevrilibdir.

Amma dərhal qeyd edək ki, burada Türkiyənin Rusiyadan əsas fərqi o saat nəzərə çarpır. Prezident Ərdoğan İstanbulda təkrar seçkilərin keçirilməsini israr etdi və seçkilər keçirildi, təkrarən müxalifətin nümayəndəsi qalib gəldi, bununla da seçkinin, necə deyərlər, nöqtəsi qoyuldu: qeydə alınmamış namizədlər olmadı, heç kim ciddi pozuntular və ya təzyiqlər haqqında danışmadı.

Bunları niyə görə deyirik? Düşünürük ki, son munisipal seçkilər dünyaya, xüsusən də onun Avropa seqmentinə göstərdi ki, Türkiyə yetərincə demokratik ölkədir və ona subyektiv ölçülərlə yanaşmaq, onu tipik, despotik Asiya -müsəlman ölkəsi kimi təsnif etmək əbəsdir.

Rusiyadasa hər şey daha mürəkkəbdir. Burada hər şey ondan başladı ki, müxalifətin bəzi təmsilçilərinin seçkilərə yolu, ümumiyyətlə, bağlanıldı və onların bir hissəsini nümayişkaranə şəkildə qeydə almadılar.

Əlbəttə, müxalifətçilər arasında Aleksey Navalnıy kimi, necə deyər, sanballı siyasi staja malik olanlar var, amma etirazlar əvvəllər indiki kimi kütləvi, hiss olunan xarakter daşımırdı: indiki müxalifət bir neçə təsirli aksiya təşkil edə bildi.

Bütün hakimiyyəti dövründə Putin ilk dəfə olaraq real və hiss olunan ictimai təzyiqlə qarşılaşdı və burada da Türkiyədə olduğu kimi V.Putin epoxasının qürubundan danışmağa başladılar və Rusiyaya ikinci yenidənqurmanın lazım olması haqqındakı təhlil xarakterli yazılar sırf akademik mülahizələr kimi deyil, real siyasi perspektiv qəbul olunmağa başladı.

V.Putinin avtoritar hakimiyyəti -Rusiyanın xəstə siyasi və ictimai iqliminin ilkin siyasi diaqnozu belədir. Demə, böyük Konfutsi həqiqətən də haqlı imiş: predmetlərə və hadisələrə onların əsl adlarını qaytarmaq lazımdır, onda onlar öz əsl həqiqi məzmunlarını tapacaqlar.

Diaqnoz varsa, deməli müalicə də olacaq, xüsusən də nəzərə alanda ki, bioloji xəstəliklərdən fərqli olaraq, sağalmaz ictimai xəstəliklər olmur.

Hazırda "Putin mifi"nin ifşası baş verir: Putinin "ümummilli lider" olması haqqındakı mif çökür, hamı başa düşür ki, Rusiyanı hansısa "ümummilli lider" deyil, bir partiyanın adamı idarə edir, üstəlik, çox sərt avtoritar üsullarla idarə edir.

Proseslərin davamı isə artıq mücərrəd politoloji konsepsiyaların predmeti deyil - aydın məsələdir ki, müxalif ovqat getdikcə güclənəcək.

Mümkündür ki, növbəti prezident seçkilərində Putin üçün siyasi anlamda çox çətin olacaq - bəziləri nahaq yerə yazmır ki, Rusiya lideri artıq siyasi dalandadır.

Etiraf edək ki, Rusiya hadisələri bizi əsasən Qarabağ problemi kontekstində maraqlandırır. N.Paşinyanın Xankəndidəki çıxışından sonra Dağlıq Qarabağ hərbi-siyasi və diplomatik teatrında vəziyyət olduqca gərgindir. Aydın deyil, danışıqlar davam edəcək, ya yox? Üstəlik, əgər ermənilər Dağlıq Qarabağı Ermənistanın bir hissəsi elan edirsə, danışıq aparmağın bir mənası varmı? Odur ki, erməni baş nazirinin bəyanatlarını dolayı yolla müharibəyə çağırış kimi dəyərləndirən siyasi müşahidəçilər həqiqətən də haqlıdırlar.

Düşünürük ki, Kremli də məsələnin belə qoyuluşu qane etməyəcək, o cümlədən də digər həmsədrləri. Axı "Qarabağ düyünü"nün belə "həlli" heç Moskvanın da regional maraqlarına cavab vermir: Kreml hesab edir ki, Dağlıq Qarabağ hələ heç kimin deyil və qeyri-müəyyən statuslu bir ərazidir, ən əsası da o, hələ uzun müddət beləcə qalmalıdır ki, Moskva bundan istifadə edərək bu iki ölkəni öz orbitində saxlaya bilsin.

Odur ki, bu payız sərt keçməyi vəd edir. Biz Rusiyada baş verən perspektiv xarakterli prosesləri də nəzərdən qaçırmamalıyıq - bu ölkədə tədricən yeni, Avropa tipli, demokratik müxalifət yetişir və belə davam etsə, uzağı 5-10 ilə liberal düşüncəli rusiyalı intellektualların haqqında çox danışdıqları "ikinci yenidənqurma" söhbətləri də heç də yersiz və ya əsassız olmayacaqdır.

Bütün hallarda, başqalarını bilmirik, biz özümüz də əminik ki, qonşu Rusiyada "ikinci yenidənqurma" mütləq olacaq. Odur ki, gəlin "birinci yenidənqurma"nın dərslərini unutmayaq - o vaxt keçmiş SSRİ-nin demokratiya düşərgəsində bizə yer tapılmadı, Rusiyanın yeni düşüncəli insanlarının demək olar ki, hamısı bizim əleyhimizə oldu.

Ən əsası isə budur ki, ermənilər belə oyunlarda çox mahir ustadırlar, onların yəqin yeni Rusiya müxalifətilə də artıq əlaqələri var. Odur ki, gəlin biz də siyasətimizə çevik və axımlı məzmun verək, çünki regionun geosiyasi mənzərəsi Rusiyadakı proseslərdən asılı olaraq dəyişə bilər...

YENİ MÜSAVAT
N 173(7343) 22 avqust 2019

# Deputat nazirin oğluna ABŞ-da toy etdiyi üçün tənqid olunmasının səbəblərini açıqladı

## Fəzail Ağamalı: "Elmar Məmmədyarovun bu məsələdə qınanması onun mübariz və prinsipial xarici işlər naziri olmaması ilə bağlıdır"



**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun oğlu Riyad Məmmədyarovun toyu olub. Riyad Məmmədyarov Aleks Zapalla adlı xanımla ailə həyatı qurub. Cütlüyün toyu ABŞ-da Nyu-York şəhərində baş tutub. Toyda Elmar Məmmədyarovla yanaşı, ailə üzvləri, eləcə də cütlüyün yaxınları iştirak ediblər.**

Qeyd edək ki, Riyad Məmmədyarovla Aleks Zapallanın münasibəti 4 il öncə başlayıb. Onlar Nyu-York Universitetində təhsil alarkən tanış olub. Cütlük rəsmi nikaha ötən ilin yayında daxil olublar. Elmar Məmmədyarovun digər oğlu Emin Məmmədyarov da ABŞ-da yaşayır

XİN rəhbərinin oğluna Amerikada toy etməsi müzakirələrə səbəb olub. Sosial şəbəkələrdə o, sərt şəkildə qınaqlara məruz qalır. Bir nazirin övladına ölkəsində toy etməyi rəva bilmədiyi, əvəzində başqa ölkəyə üstünlük verməsi tənqid olunur. Ən azından Azərbaycanda bir toy etməyin mümkün olduğu vurğulanır.

**Bu olaya Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalının rəyini soruşduqda o, "Yeni Müsavat"a bunları dedi:** "Azərbaycan demokratik bir ölkədir. Vətəndaşlarımız azad, sərbəstdirlər, öz həyatlarını qurmaq üçün onların konstitusion hüquqları təmin olunub. Eyni zamanda istənilən yerdə istirahət etmək, istənilən ölkəyə səyahətə getmək, istənilən ölkədə toy etmək hüquqları var. Bu çox qınanılası məsələ deyil. Cəmiyyətin bu məsələdəki mənfi reaksiyasının səbəbi mənə elə gəlir ki, hər şeydən öncə Elmar Məmmədyarovun xarici işlər naziri olması, yüksək dövlət məmuru statusu daşımasıdır. Mən bir çox məsələlərdə hər zaman ölkə prezidentini, onun ailəsini nümunə kimi gətirmişəm. Doğrudan da həqiqət budur. Çünki ölkə prezidentinin bütün sahələrdə olduğu kimi ailə münasibətlərində də atmış olduğu addımlar nümunəvidir. Müsahibələrimin birində belə fikir söyləmişəm ki, ölkə prezidentinin oğlu dünyanın istənilən ölkəsində xarici təhsil ala bilərdi. Amma Bakıda Azərbaycan Diplomatiya Akademiyasında təhsil aldı. Bir çox məmurların övladlarından fərqli olaraq vətəni, dövləti qarşısında öz müqəddəs borcunu yerinə yetirdi, əsgəri xidmətini uğurla başa vurdu. Ancaq elə məmurlar var ki, onların övladları nəinki əsgəri xidmətdə olmayıblar, eyni zamanda bir çox xarici ölkələrin vətəndaşıdırlar. Sual doğurur, xeyir ola? Nə əcəb? Bunlar Azərbaycanın bu günündən və gələcəyindən narahatdırlar? Azərbaycan dövlətinə inanmırlar? Dövlətimizin onlara yaratdığı imkanlardan razı deyillər? Azərbaycanda təhlükəsizliklərini görmürlər? Bu cür suallar ortalığa çıxır. Özü də çox haqlı suallardır. Riyad Məmmədyarovun həyat yoldaşı ABŞ vətəndaşıdır. Bu baxımdan ümumi ailənin belə bir fikri olub ki, toy Amerikada keçirilsin. Olsun, nə olar ki. Burada pis heç nə görmürəm. Amma bu söz-söhbətlərə rəvac verməmək üçün Elmar Məmmədyarov ən azından həmin toyun birini də Azərbaycanda keçirə bilərdi. Amma istənilən halda bu onun seçimidir. Dediyim olsaydı, məncə, bu cür söz-söhbətlər yaranmazdı. Sadəcə olaraq, hər halda, gənclər evlənib. O gənclərə xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, Elmar Məmmədyarovun oğlunun toyu Amerikada olsa da, Azərbaycana bağlı olsun, vətənini sevsin, gələcəkdə dünyaya gələn övladlarını həm də Azərbaycanpərəst mövqedə tərbiyə etdirsin, elə formalaşdırsın ki, onlar Azərbaycan üçün ən çətin anlarda fədakarlıq etməyə hazır olsunlar. Əsas olan budur. Bu oldusa, toyun harada keçirilməsi, məncə, o qədər də önəmli deyil".



**Deputat XİN rəhbərinin hədəfə tuş gəlməsinin əsl səbəblərini açıqladı:** "O, hər halda, xarici işlər naziridir. Dövlətdə protokol qaydalarına görə ölkə prezidenti, I vitse-prezident, baş nazir, Milli Məclisin sədri və sonra xarici işlər naziri gəlir. Elmar Məmmədyarovun xarici işlər naziri kimi daşıdığı səlahiyyət var. Digər tərəfdən, əlbəttə, görünən odur ki, Elmar Məmmədyarov bu dərəcədə müzakirə predmetinə çevrilib. Hər halda, vaxtilə onun haqqında fikir söyləmişdim. Mətbuatda gedib. Çox arzulayardım ki, Elmar Məmmədyarov mübariz və prinsipial bir xarici işlər naziri olsun. Təəssüflər olsun ki, bu mümkün olmadı. Ölkə prezidentinin həyata keçirmiş olduğu hücum diplomatiyası bir çox hallarda Elmar Məmmədyarov tərəfindən özünün timsalında xeyli dərəcədə liberallaşdırılır. Sanki o, Minsk Qrupunun həmsədrlərinin fəaliyyətlərinin və işinin davamçısı kimi görünür. Paşinyan Dağlıq Qarabağı Ermənistanın ərazisi hesab edir, bizim xarici işlər naziri dişsiz bir bəyanatla çıxış edir. Halbuki xarici işlər naziri Minsk Qrupu həmsədrlərini dərhal ölkəmizə çağırmalı, ortaya rəsmi mövqe qoymalı idi. Onlardan izahat tələb etməli idi ki, buyurun, cavab verin. Bunları etmədi. Dişsiz, qeyri-müəyyən açıqlama ilə XİN-in mətbuat xidməti açıqlama yaydı. Sonradan hər şey də passivləşdi. Paşinyan indi Amerikaya gedir. Orada da erməni diasporasının qarşısında bu fikirləri söyləyəcək ki, bəli, mən artıq elan etmişəm, indi də elan edirəm ki, Dağlıq Qarabağ Ermənistanın bir hissəsidir. Bu təcavüzkarlığın bir etirafıdır. Ermənistanın işğalçı ölkə olduğunu ortalığa qoyan ciddi bir faktdır. Xarici işlər naziri bunu etmirsə, cəmiyyətdə də bu birmənalı qarşılanmır. Nəticədə oğluna Amerikada toy edəndə bu cür hərəkətlər yada düşür, ona qarşı münasibətlər özünü ifadə edir. Məncə, bunun başqa bir səbəbi yoxdur".

❑ **Cavanşir ABBASLI,**

# Hakimiyyət İbrahimbəyovu bağışlayıbmı...

## Əli Əliyev: "Onun təşkilatının qeydə alınması siyasi qərardır"

**Ədliyyə Nazirliyi Azərbaycan Kinematoqrafçılar İttifaqının rəhbər orqanlarının səlahiyyətlərini təsdiq edib. Bu barədə ittifaqın katibi Əli İsa Cabbarov APA-ya açıqlamasında bildirib. O qeyd edib ki, 1963-cü ildə təsis olunmuş ittifaqın heç vaxt qeydiyyat problemi olmayıb: "Sadəcə, ittifaqın nizamnaməsini "Qeyri Hökumət Təşkilatları haqqında" Qanunun tələbinə uyğun redaktə etmək və rəhbər orqanları yenidən seçmək tələb olunurdu. İyulun 16-da keçirilən konfransda sədr və İdarə Heyəti seçildi".**



Katibin sözlərinə görə, Ədliyyə Nazirliyi ittifaqın bütün orqanlarının, o cümlədən sədr Rüstəm İbrahimbəyovun səlahiyyətini təsdiq edib.

Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin sədri kinorejissor Rüstəm İbrahimbəyov, üzvləri isə Anar, Rasim Balayev, Cəmil Fərəcov, Ziya Şıxlinski, Əli İsa Cabbarov, Firəngiz Qurbanova, Baba Vəziroğlu, Məbud Məhərrəmov, Şükufə Yusupova, Əsəd Əsədov, Həmidə Ömərova, Nizami Abbas, Tahir Əliyev, Lalə Əfəndiyeva, Oleq Səfərəliyev, Cavid İmamverdiyev və Mirbala Səlimlidir.

Xatırladaq ki, 2013-cü ildən Rüstəm İbrahimbəyovla Azərbaycan hakimiyyəti arasında münasibətlər pozulmuşdu. Tanınmış kinorejissorun 2013-cü il prezident seçkiləri öncəsi müxalifət mövqeyinə keçməsi, hakimiyyətin siyasəti əleyhinə kəskin çıxışlar etməsi, iqtidara qarşı fəaliyyət göstərən qurum yaratması onunla hakimiyyət arasında körpüləri yandırmışdı. İndi Azərbaycan Kinematoqrafçılar İttifaqının rəhbər orqanlarının, o cümlədən Rüstəm İbrahimbəyovun səlahiyyətlərinin təsdiq edilməsi hadisəsi Rüstəm İbrahimbəyovla hakimiyyət arasında anlaşmanın əldə olunması hesab edilə bilərmi?

Bu hadisə həm də hökumətin İbrahimbəyovu bağışlayıb, yenidən öz tərəfinə çəkmək istəyinin olduğunun əlamətidirmi?

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, Rüstəm İbrahimbəyovun təşkilatının qeydə alınması siyasi qərardır:** "Deməli, hakimiyyət onun Azərbaycana gəlişinə və sərbəst fəaliyyətinə razılıq verib. Bu müsbət haldır. İbrahimbəyovun son siyasi fəallığı 2013-cü il prezident seçkiləri idi. O zaman kino mütəxəssisi ilk dəfə idi ki, siyasi ampluada meydana çıxmışdı. Təəssüf doğuran odur ki, dünyaca məşhur rejissor Kremlin layihəsində rol almışdı. İndi baş verənlər unudulubsa, bunu yalnız alqışlamaq olar. Yox, əgər bu yeni Şimal ssenarisidirsə, o zaman gərginlik arta bilər. Ümid edək ki, birinci haldır və buna sevinək".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "İran da gözlənilməz addımlar ata bilər" - Cavad Zərif

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif ABŞ prezidenti Donald Trampın gözlənilməz siyasətinə cavab olaraq İranın da gözlənilməz addımlar ata biləcəyini deyib.**

APA-nın xəbərinə görə, İran XİN başçısı bu barədə Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunda çıxışı zamanı bildirib.

"Qarşılıqlı gözlənilməzlik xaosa gətirib çıxaracaq. Prezident Tramp özü gözlənilməz siyasət yürütdüyü halda digərlərindən bunun əksini gözləyə bilməz".

M.C.Zərif deyib ki, körfəzdəki ərəb ölkələri Qərb silahlarını almağa milyardlarla dollar xərcləməklə bölgədə təhlükəsizliyə nail ola bilməzlər: "Körfəzdə heç bir xarici hərbi qüvvə etibarsızlığın və təhlükənin qarşısını ala bilməz", - deyə Cavad Zərif qeyd edib.

YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019

# "İşsizin DOSTu" proqramı necə icra olunur - faktlar və rəylər

## Ucar sakinləri: "Rusiyada alver edənləri işə qəbul ediblər"

**Bu günlərdə Ucar rayonunun bir qrup sakini rayonda "İşsizin DOSTu" proqramının icrası prosesi ilə bağlı şikayətlə çıxış edib. AFN.az saytına müraciət edən sakinlər Ucar Rayon İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən proqramın icrasına müdaxilə olunduğunu qeyd edirlər: "Ölkədə işsizliyin aradan qaldırılması üçün prezident İlham Əliyev sərəncamlar imzalayır müvafiq tapşırıqlar verir: Bunlardan biri də "DOST" İş Mərkəzinin yaradılması oldu. Cənab İlham Əliyev "DOST" İş Mərkəzi MMC-ni ona görə yaratdı ki, yerlərlə işsiz əhali işlə təmin olunsun, əmək haqqı alıb ailələrini dolandırsın. Ancaq Ucar rayonunda rəhbər vəzifəli şəxslər bundan sui-istifadə edib saxtakarlıqla, talançılıqla məşğul olur, vətəndaşlarda kütləvi narazılıqlar yaradırlar. Ucar rayonunda rəhbər vəzifəli şəxslər öz maddi maraqlarına görə saxtakarlıqlar edib "DOST" İş Mərkəzi MMC-ni kasıb işsiz insanlara düşmən ediblər".**

"Yeni Müsavat" olaraq, şikayətçi sakinlərlə əlaqə saxladıq. Onlar bildirdilər ki, "DOST" İş Mərkəzi MMC-nin xətti ilə Ucar rayonunda 700-dək insan müxtəlif dövlət qurumlarında işlərə cəlb edilib: "Bunlar arasında qaz, elektrik idarələri, Ucar rayon Kommunal Müəssisələri Kombinatı da var. Bizim qeyd etdiyimiz faktlar rayon icra hakimiyyətinin tabeliyində olan bu kombinatdadır. Bu il həmin kombinata "DOST" İş Mərkəzi MMC-nin xətti ilə 540 nəfər işə qəbul olunub. Onlardan yalnız 30-40 nəfər havadarı olmayan zəhmətkeş işçi gündəlik Kommunal Müəssisələri Kombinatına işə gəlir. Qalan 500 nəfəri işə gəlməyib hər ay aldıqları əmək haqqının bir qismini vəzifəli şəxslərə haqq verirlər. Onların çoxu Rusiyada alverlə məşğuldur, burada adlarına staj gedir, əsl işə ehtiyacı olan insanlar isə qalıb kənarda. Həmin şəxslər Məşğulluq Mərkəzində işsiz kimi qeydiyyata belə durmamışdılar. Mərkəzdə 2017-ci ildən qeydiyyatda olan adamlar qalıb kənarda, onların adını yazıblar işə. Çoxusunun maaş kartı icra başçısının, onun müavinlərinin cibindədir. Maaşı onlar alırlar".

Ucar sakinləri məsələ ilə bağlı Baş Prokurorluq yanına Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə də müraciət ediblər: "Biz nə qədər tələb etsək də, Məşğulluq Mərkəzi proqram əsasında işə qəbul olunanların adlarını açıqlamır. Amma əldə etdiyimiz məlumatlar göstərir ki, işə ehtiyacı olmayan adamların adlarını yazıblar. Həmin şəxslərin aylardır Rusiyada olduqlarını Dövlət Sərhəd Xidmətindən məlumat almaqla müəyyənləşdirmək çox asandır".

Şikayətçilər tələb edirlər ki, "DOST" İş Mərkəzi MMC-nin xətti ilə Ucar rayon Kommunal Müəssisələri Kombinatına və digər idarələrə işə qəbul olunan şəxslərin adları açıqlansın, siyahı ictimailəşsin.





### Sahib Məmmədov: "Şəffaflığı təmin etmək üçün proqram çərçivəsində işə götürülənlərin adları açıqlanmalıdır"

### Fazil Talıbov: "İctimai xarakterli işlərlə təmin edilmiş şəxslərin işə davamiyyətinə mütəmadi nəzarət olunur"

**Ucar sakinlərinin müraciəti ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Fazil Talıbov "Yeni Müsavat"a bildirib ki, şikayətdə qeyd olunanlar əsassızdır:** "İctimai xarakterli işlərlə təmin edilmiş şəxslərin işə davamiyyətinə mütəmadi nəzarət olunur. Həmin vətəndaşlardan üzrsüz səbəblərə görə işə çıxmayan hər hansı işçi olduqda, onunla bağlanmış əmək müqavilələrinə qanunvericilik əsasında xitam verilir. Ucar rayonunda da eyni bu prosedur həyata keçirilir. Ona görə yazıda guya ödənişli ictimai işlərə cəlb edilənlərdən böyük qisminin işə gəlmədikləri, hətta guya ölkədə olmadıqları, onların maaş kartlarının başqalarında olduğu barədə qeyd edilənlər heç bir fakta söykənməyən, əsassız fikirlərdir.

Digər rayon və şəhərlərimizdə olduğu kimi, "DOST İş Mərkəzi" tərəfindən Ucar rayonunda da yalnız rayon Məşğulluq Mərkəzində işsiz və ya işaxtaran kimi qeydiyyatda olanlar ödənişli ictimai işlərə cəlb ediliblər.

Bu yazılar Ucar rayonundan bir qrup şəxsin müraciətinə əsasən dərc edilib ki, həmin vətəndaşlardan bəziləri bundan əvvəl eyni məzmunda "DOST İş Mərkəzi"nə məktubla müraciət ediblər. Onların müraciətləri ilə bağlı müvafiq araşdırma aparılmaqla rəsmi cavablar verilib. Həmçinin üzrsüz səbəbdən işə çıxmayan şəxslərin əmək müqavilələrinə xitam verildiyi onların diqqətinə çatdırılıb".

Onu da bildirək ki, "İşsizin DOSTu" proqramı çərçivəsində işlə təminatla bağlı narazılıqlar yalnız Ucarda deyil, digər bir sıra rayonlardan da bu tipli müraciətlər almaqdayıq. Əksər hallarda vətəndaşlar əsl işaxtaranların deyil, müxtəlif dövlət qurumlarında yüksək vəzifə tutan şəxslərin yaxınlarının işlə təmin olunmasından narazılıq edirlər. Xatırladaq ki, Azərbaycanda ünvanlı dövlət sosial yardımı proqramının icrası zamanı da belə narazılıqlar səsləndirilirdi. Bir neçə il ərzində bu narazılıqlar nəzərə alınmadı, lakin sonradan hüquq-mühafizə orqanlarının apardığı araşdırmalar onların əksəriyyətinin haqlı olduğunu üzə çıxardı. 2013-cü ildən bəri onlarla rayonda ünvanlı sosial yardımın təyinatı zamanı kobud qanunsuzluqlara yol verilməsi faktları aşkarlanıb, ƏƏSMN-in yerli qurumlarının xeyli sayda vəzifəli şəxsi cinayət məsuliyyətinə cəlb olunub. Bir çox hallarda həmin şəxslərdən onlarla ünvanlı yardım kartı götürülüb. Ünvanlı sosial yardımla bağlı qanunsuzluqları Prezident İlham Əliyev də kəskin tənqid edib. Ötən ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş hökumət müşavirəsində dövlət başçısı bildirib ki, sosial ədalət tam bərqərar olmalı və şəffaflıq tam təmin edilməlidir: **"Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır. Ancaq bir çox hallarda vətəndaşların hüquqları pozulur, ədalətsizlik hökm sürür, yardıma ehtiyacı olan yardım almır, yardıma ehtiyacı olmayan yardımı alır və ondan sonra o vəsaiti dövlət məmurları ilə bölüşür. Belə hallar kifayət qədər çoxdur, indi ciddi araşdırma aparılır. Sosial təminat sahəsində tam şəffaflıq təmin edilməlidir, sosial ədalət tam bərqərar olmalıdır.**

**Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq. Amma əsas vəzifə ondan ibarətdir ki, bu yardım ədalətli bölünsün. Doğrudan da bu yardıma ehtiyacı olan bu yardımı alsın. İmkanlı adamlar, yaxud da ki, sosial yardıma ehtiyacı olmayanlar bu yardımdan məhrum edilməlidir".**

Göründüyü kimi, vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş sosial proqramlarda yol verilən qanunsuzluqlar ölkə rəhbərliyi tərəfindən kəskin tənqid olunur. "İşsizin DOSTu" proqramının təşəbbüskarının dövlət başçısı olması onu icra edən qurumların öz işlərinə daha məsuliyyətlə yanaşmasını tələb edir. Bu baxımdan, həm ƏƏSMN, həm də digər müvafiq qurumların Ucar və digər rayonlardan gələn şikayətlərə həssas yanaşması, hər bir fakt üzrə dərin araşdırmanın aparılması mühüm əhəmiyyət kəsb edir.

**Səsləndirilən şikayətlərdə vətəndaşların əsas tələblərindən biri proqramın icrası prosesində şəffaflığın təmin olunması ilə bağlıdır. Onlar proqram çərçivəsində işə qəbul olunmuş şəxslərin adlarının ictimaiyyətə açıqlanmasını tələb edirlər. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, vətəndaşların bu tələbinin reallaşdırılması sahəsində problem olmamalıdır:** "İlk öncə bildirim ki, bu proqramı müsbət qiymətləndirirəm. Xüsusilə rayonlarda ehtiyacı olan insanların 300 manata yaxın əmək haqqı ilə işə cəlb olunması onların ailəsi üçün böyük dəstəkdir. Bir vaxtlar biz ünvanlı dövlət sosial yardımı prosesini monitorinq edərkən, belə yardım alanların siyahısının ictimaiyyətə açıq olmasını təklif etmişdik. Onda bizə deyirdilər ki, bu, qeyri-etikdir və sair. Halbuki bu proqram ictimai vəsaitlər hesabına həyata keçirilirsə, ondan bəhrələnənlərin adları hamıya açıq olmalıdır. Sonradan ünvanlı yardım alanların siyahısı açıqlandı və heç bir problem də yaranmadı, əksinə, narazılıqların, şikayətlərin qarşısı xeyli alındı".

**Liqa rəhbəri bildirir ki, "İşsizin DOSTu" proqramı da büdcə vəsaitləri hesabına həyata keçirilir:** "Buna görə də bu proqrama cəlb edilənlərin siyahısı açıqlanmalıdır. Hər rayonda kimlərin işlə təmin olunduğu açıqlanarsa, yerli strukturların korrupsiya imkanları da xeyli məhdudlaşar. Məlum məsələdir ki, bəzi rayon strukturları bu kimi proqramlardan əlavə bəhrələnməyə çalışırlar. Bunun qarşısını almaq baxımından ən təsirli üsullardan biri bu ola bilər ki, işlə təmin olunanların siyahısı internet resurslarında açıqlansın. Bu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün də lazımdır ki, yerlərdə bu cür narazılıqlar azalsın. Demirəm ki, subyektiv hallardan tam kənarlaşmaq mümkün olacaq, amma şəffaflığın olması xeyli dərəcədə buna imkan verəcək".

Məlumat üçün bildirək ki, "İşsizin DOSTu" proqramının icrası çərçivəsində bu ilin ötən dövründə 40 min nəfər ödənişli ictimai işlərlə təmin olunub. Bu qədər insanın iştirak etdiyi bir proqramla bağlı şəffaflığın tam təmin olunması üçün ƏƏSMN tərəfindən hansı addımlar atılır? Nazirlik proqram çərçivəsində işlə təmin olunan şəxslərin siyahısının açıqlanması təklifini necə qiymətləndirir? Ucar rayon sakinlərinin qeyd etdikləri konkret faktlar üzrə ətraflı araşdırmanın aparılması gözlənilirmi? Bu və digər suallarımıza ƏƏSMN-dən cavab almağa çalışırıq. Müvafiq sorğumuza aldığımız cavabı oxucularla bölüşəcəyik.

***P.S.** Şikayətçilərin Ucar Rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə bağlı dediklərinə rəy almaq üçün adıçəkilən quruma zəng vursaq da, telefona cavab verilmədi. Ucar RİH-in mövqeyini dinləməyə hazırıq.*

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019

# "Mühacir alveri ilə Azərbaycanda yox, Avropada bir şəbəkə məşğul olur"

## İsveçdə yaşayan rejissor **Rahim Sadıqbəyli:** "Mühacirləri ölkəyə qaytarmaq üçün nüfuzlu şəxslərdən ibarət heyət Avropaya göndərilməli, onlarla danışıqlar aparılmalıdır"

**Hazırda İsveçdə yaşayan, vətəndaşlıq statusu alan azərbaycanlı kinorejissor Rahim Sadıqbəyli "Yeni Müsavat"ın facebook və youtube platformalarında həyata keçirdiyi "Canlı debat" verilişinin qonağı olub. Müsahibə zamanı Avropada və Azərbaycanda baş verən proseslər müzakirə mövzusu olub.**

R.Sadıqbəyli öncə Avropaya miqrasiya səbəblərinə toxunub:

- 2003-cü ildə burada "Bəyaz Həyat" adlı serial çəkdim. Səs-küy yaradan serial idi. Sənədli filmlər də çəkirdim. Almaniyaya dəvətim vardı. Ora getdim və orada sənədli filmlər çəkdim. Bu filmərdən biri Brlin Festivalında oynanıldı və mən "ən yaxşı rejissor" nominasiyasına layiq görüldüm. Sonra vətənə qayıtdım və yenidən serialın davamını çəkmək istədim. Amma sponsor tapa bilmədik. Marketinq təcrübəm ona yol vermirdi ki, daha çox sponsorlar cəlb edim. Ona görə də Berlinə getdim, orada fəaliyyət göstərdim. Ardınca ailəm də yanıma gəldi və artıq 15 ildir ki, İsveçdəyəm. Artıq vətəndaşlıq almışam.

***- Xaricdə yaşayan mühacirləri daha çox kateqoriyalara bölürlər. Xüsusən də məskunlaşdıqları ölkələrə görə. Almaniyadakı mühacirləri bir kateqoriya, İsveçdə, İsveçrədəkiləri tamam fərqli kateqoriya altında ümumiləşdirirlər. Burada onların siyasi aktivliyi, Azərbaycandakı proseslərdə tutduğu mövqe və digər məsələlər önəm daşıyır.***

- Kateqoriyalaşdırmaq doğru deyil. Amma indi sosial şəbəkələlərin bizə verdiyi imkanları nəzərə alaraq, Azərbaycandan gedən insanların çoxu şirin həyatdan getməyiblər. Heç kim məcbur qalmasa, ölkəsini tərk etməz. İnsanların içində bir inciklik vardı. Bu inciklik onları ölkədən ayrı saldı.



### "Budəfəki gəlişimdə hiss etdim ki, Azərbaycanda bir qədər pozitivlik, nələrisə düzəltmək meyli var"

Amma təbii ki, söyüş, hədyan ritorikasını qəbul etmirəm. Siyasi debatlar, proqramlar olmalıdır və bu, demokratiyanın əsasını təşkil edir...

Nazim İbrahimovun vaxtında diaspora komitəsi ayrımçılıqla məşğul idi. İnsanları siyasi düşüncəsinə görə kateqoriyalara bölürdülər. Təəssüflər olsun ki, son zamanlar diaspor fəaliyyəti burada arxa plana keçib. Yəni biz burada çoxala-çoxala bəzən fikirlərimiz üst-üstə gəlmir. Siyasi çəkişmələr buna səbəb olur... Məncə, siyasi məsələlərlə işimizi qabağa apara bilmərik. Biz mədəniyyətlə bir araya gələ bilərik. Ümid edirəm ki, indi yeni rəhbərlik gəlib və yeniliklər etməyə çalışırlar.

***- Necə düşünürsünüz, indiki halda xaricdə yaşayan mühacirlərin Azərbaycana qayıtması üçün dövlət hansısa proqramlar həyata keçirə bilərmi? Hansı halda "Vətənə qayıdış" dalğası baş tuta bilər?***

- Azərbaycanlıların toplum halda yaşadığı ölkə Rusiya, ABŞ, Almaniyadır. Dövlət ilk növbədə bu addımı atmalıdır. Mühacirlərin ölkəyə qaytarılması üçün buradan bir qrup ayrı-ayrı ölkələrə getməlidir. Diaspor komitəsi bunu təşkil etməlidir. Bu qrupa Çingiz Abdullayev kimi yazıçı, Rasim Balayev, Rauf Arifoğlu kimi nüfuzlu şəxslər daxil edilməlidir. Onlar mühacirlərlə söhbət etməli, onların istəkləri ilə maraqlanmalı və ölkəyə qayıdacaqları halda hər şeyə təminat verməlidilər. Mən ölkəmə pozitiv yanaşıram. Budəfəki gəlişimdə hiss etdim ki, Azərbaycanda bir qədər pozitivlik, nələrisə düzəltmək meyli hiss olunur. Bunu təkcə mən yox, burada görüşdüyüm ziyalı, jurnalist təbəqəsi də etiraf etdi.

***- Bugünlərdə saxta mühacir vəsiqəsi ilə bağlı yeni bir polemika yarandı və bu məsələdə xüsusən Müsavat Partiyasının adı hallandı. Sizin ətrafınızda saxta mühacir adı ilə status, oturum almağa çalışan azərbaycanlılar çoxdurmu?***

- Açıq deyəcəm, Avropaya gələn insanların çoxu burada müxalifət nağıllarını danışan adamlardır. Ay mən müxalifətçiyəm, atamı tutdular, özümə zülm etdilər. Ya da saxta jurnalist vəsiqəsi ilə ora gedənlər də çox olub. Amma mən Müsavat Partiyasına inanıram. Düşünmürəm ki, Müsavat Partiyası rəhbərliyində belə qanunsuzluqla məşğul olan insanlar var. Bunu edənlər yerlərdədir, məsələn, Almaniyada belə bir şəbəkə var. Şəxsən adlarını da bilirəm. İsveçdə, Hollandiyada da onların nümayəndələri var. Onlar nəinki partiya bileti, eyni zamanda jurnalist vəsiqələri düzəldirlər ki, filankəs filan qəzetdə çalışır. Keçən ilə qədər İsveçdə mühacirət açıq idi. Yenə də deyirəm: evinizi satıb, o dəllalların sözü ilə İsveçə gəlməyin. İsveçə keçən il 160 min suriyalı gələndən sonra İsveçdə mühacir məsələsi bağlanıb, azərbaycanlılara oturum vermirlər. Buna səbəbi həm də Azərbaycanın yarıdemokrat ölkə olması ilə bağlıdır. İndi Böyük Avropa ölkələrində oturum almaq çox çətinləşib. Ərəblərin axınından sonra Avropada faşizmin, rasizmin də faizi artıb. Amma azərbaycanlı mühacirlərə qarşı neqativ münasibət yoxdur. Çünki biz çox istedadlı xalqıq və dərhal yeni situasiyadan baş çıxarırıq. Azərbaycanlılar avropalı kateqoriyasındadılar. Ukraynalılara qarşı münasibət yüksəkdir. Ərəblərə qarşı da münasibət pisdir. Kürdlər orada öz sözlərini deyiblər. Ermənilər özlərindəndir - bu, dəyişməz qaydadır.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Arif Əsgərov və oğlunun adı daha bir qalmaqalda



## Ata-bala bankdan kredit alıb qaytarmayıblar

**Ali Məhkəmə sabiq nazir müavini Arif Əsgərov barəsində qərar çıxarıb. Keçmiş nazir müavini oğlu Elnar Əsgərovla birlikdə Əmanətlərin Sığortalanması Fonduna 92 min 622 dollar pul ödəməlidir.**

Qərara görə, Elnar Əsgərov hələ atası nazir müavini olan dövrdə - 2015-ci ilin noyabrında "Dəmirbank"dan götürdüyü krediti qaytarmayıb. Atası bu kreditin qaytarılacağına zaminlik etdiyinə görə borcu qaytarmaq öhdəliyi onun da üzərinə qoyulub.

İş üzrə Əmanətlərin Sığortalanması Fondu Binəqədi Rayon Məhkəməsinə müraciət edib. Məhkəmə Əsgərovlar barəsində qiyabi qətnamə çıxarıb. Məhkəmə qərarına görə 92 min 622 dolların 86 min 026 dolları əsas borc, 6595 dolları faiz, 1 dolları isə cərimə borcudur. Əsgərovlar bu qərardan xəbər tutandan sonra apelyasiya şikayəti veriblər. Şikayətləri təmin olunmayıb. Bakı Apelyasiya Məhkəməsi və Ali Məhkəmə də Binəqədi Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Arif Əsgərovun və oğlunun adı illərdir ki, mətbuatda böyük maxinasiyalarda hallanır. Sabiq nazir müavini və oğlunun bir neçə bankdan götürdüyü kreditləri qaytarmadığı iddia olunur. "Dəmirbank"la yanaşı, "Bank of Baku" və "Bank Standard" da ondan məhkəməyə şikayət edib. "Bank of Baku"nun iddiası üzrə prosesdə Elnar Əsgərovun vəkili etiraz edib ki, bu işə Binəqədi Rayon Məhkəməsində yox, Nərimanov Rayon Məhkəməsində baxılmalıdır. Çünki Elnar Əsgərov Binəqədi rayonunda qeydiyyatda olsa da, faktiki Nərimanov rayonunda yaşayır. Amma bu şikayətlər təmin olunmayıb.

Əmanətlərin Sığortalanması Fondunun "Bank Standard"a borca görə Elnar Əsgərova qarşı qaldırdığı iddia üzrə iş isə hazırda Ali Məhkəmədədir.

Elnar Əsgərovun adına bağlı ilk qalmaqal 11 il öncə Böyük Britaniyada olmuşdu. 2008-ci ildə 22 yaşı olan Elnar Əsgərov Londonda təhsil aldığı universitetdə imtahanlara öz əvəzinə saxta sənədlə başqasını göndərmişdi. Bu faktın üstü açılandan sonra onların hər ikisi ilə bağlı araşdırmalar başlamışdı.

Ötən il isə xalası Lətifə Hüseynova oğulları Emil və Rahibin dələduzluq suçlaması ilə həbsinə görə Elnar Əsgərovu günahlandırırdı. Lətifə Hüseynova "Yeni Müsavat"a demişdi ki, adamlardan pulu Elnar Əsgərov alıb, amma onun övladlarını məsuliyyət altında qoyub. Faktiki olaraq nazir müavini özünü və oğlunu xilas etmək üçün baldızının oğlunu güdaza verib.

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. O, 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edilərək, nəqliyyat nazirinin müavini təyin edilib. Sonradan Nəqliyyat Nazirliyi ləğv edilərək Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilib və o, vəzifəsini itirib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 173 (7343) 22 avqust 2019



# "QKÇP" dönəmindən qalan ağır miras

## SSRİ çöksə də Moskvanın Qarabağ siyasəti dəyişməz qalır; Ermənistanda isə Paşinyan hökumətindən narazılıq artır - səbəblər...

**Bu günlər (19-22 avqust) SSRİ-də illər öncə baş vermiş "QKÇP" adlı qiyamın növbəti ildönümüdür. 28 il qabaq, bu avqust günlərində bir qrup sovet yüksək çinli məmuru, başda SSRİ-nin ovaxtkı baş nazirinin müavini Yanayev və KQB sədri Kryuçkov olmaqla, müdafiə və daxili işlər nazirləri - Yazov və Puqo tarixin təkərini geri döndərib SSRİ-ni xilas etməyə cəhd etdilər. Ancaq alınmadı. SSRİ çökdü, 15 müttəfiq respublika müstəqillik qazandı.**

Onlardan yalnız biri - Rusiya, belə görünür ki, bu çöküşü hələ də həzm edə bilməyib. Məhz bu səbəbdən SRRİ dönəmində Kremlin xeyir-duası ilə yaranan və minlərlə günahsız insanın, uşaqların, qoca və qadınların həyatına son qoyan Dağlıq Qarabağ konflikti SSRİ-nin süqutundan sonra - Rusiya dönəmində də davam elədi, öz ədalətli həllini tapmadı. Ona görə ki, SSRİ tarixə qovuşsa da, onun hüquqi varisinin - Rusiyanın "parçala, hökm sür" siyasəti dəyişmədi.

O vaxtdan Moskva əlində unikal rıçaqlar və şanslar ola-ola postsovet məkanındakı ən qanlı və üzücü münaqişəni çözmək istəmir. Nə Yeltsin Rusiyası buna qol qoydu, nə də 20 ildir Putin Rusiyası buna maraq göstərir. ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən birincisi olan Moskva illərdir yalnız növbətçi bəyanatlar verməklə kifayətlənir.

Paralel surətdə Rusiya Azərbaycanın hərb yolu ilə problemi həll eləməsinə əngəl olur. Çünki Moskvaya həll olunmamış, tüstülənən Qarabağ ixtilafı daha sərfdir. Təbii ki, Rusiyada heç kim bunu açıq bəyan eləmir. Moskva Qarabağa dair imitasiya siyasətini davam etdirir.

*****

Söz düşmüşkən, srağagün Rusiya və Fransa prezidentləri - Vladimir Putinlə Emmanuel Makron Rusiya liderinin Parisə səfəri zamanı Dağlıq Qarabağ nizamlanmasını müzakirə edib. Bu barədə Putinin mətbuat katibi Dmitri Peskov məlumat verib. "Fort Breqansonda Rusiya və Fransa prezidentlərinin görüşündə bir çox məsələlər müzakirə olundu. Əsas mövzular isə "Normand formatı"nda sammitin perspektivləri, Suriyadakı vəziyyət, regional münaqişələr - Balkanlar, Dağlıq Qarabağ, eləcə də Arktikanın iqlimi və ondan istifadə edilməsi oldu", - deyə o, jurnalistlərə bildirib.




Ancaq bu müzakirələr nəyi dəyişəcək? Fakt budur ki, Putinin Rusiyada hakimiyyətdə olduğu 20 ildə konfliktin həllində Rusiya müsbətə doğru ciddi dönüş yaradacaq heç bir təşəbbüs göstərməyib. Bunu, sadəcə, istəməyib. Bir dəfə də olsun, "Ermənistan işğalçıdır", "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, BMT qətnamələri yerinə yetirilməlidir" deməyib. Eləcə də digər həmsədr dövlət, işğalçı Ermənistanı özünün "kiçik bacı"sı sayan Fransa. Odur ki, belə növbətçi müzakirələrdən hansısa nəticə gözləməyə dəymir.

Məsələ də ondadır ki, Rusiya, Fransa və ABŞ təcavüzkar Ermənistana real sülh anlaşması üçün təzyiqlər etməyə başlamayınca, danışıqlar boş vaxt itkisi olaraq qalacaq. Problemin tək həll yolu kimi isə daima müharibə variantı gündəmdə olacaq - hansı müharibə ki, onsuz da ağır durumda, blokada vəziyyətində olan Ermənistana və Rusiyaya ən çox ziyan vuracaq.

*****

Bu arada inqilab sonrası Ermənistanda da etirazlar səngimir. Narazı kütlə bu dəfə parlament binasını mühasirəyə alıb. Etirazçılarla polis arasında qarşıdurma olub, saxlanılanlar var. Parlamenti mühasirəyə alan əhali baş nazir Nikol Paşinyanla görüşmək istədiklərini bildirib. Etirazçılar deyiblər ki, İcevandakı, Gümrüdəki problemlərin nə vaxt həll olunacağını baş nazirdən öyrənmək istəyirlər.

Onların fikrincə, əvvəl olduğu kimi bu gün də ölkə talanır. Ölkədəki binaların 80 faizi qəzalı vəziyyətdədir. Bu səbəbdən ailələrin böyük əksəriyyəti gecəni küçələrdə keçirir. Bundan başqa, Ermənistanda işsizlər ordusunun sayı 47 min nəfərdən çoxdur. 50 mindən çox insan ölkəni tərk edib. Aksiya iştirakçıları N.Paşinyana xəbərdarlıq edərək bildiriblər ki, problemlər öz həllini tapmasa, parlamentin qarşısında narazı kütlənin sayı artacaq.

Qeyd edək ki, etirazçılar paytaxt İrəvanın əsas yollarını bağlayıblar. Hadisə yerinə daxili qoşun qüvvələri cəlb olunub. İnsident nəticəsində 30-a yaxın etirazçı saxlanılıb.

Heç şübhə yox ki, bu etirazların sayı və amplitudası getdikcə artacaq və onları "xalq baş naziri" Nikol Paşinyan da önləyə bilməyəcək. Ona görə ki, bu kimi sosial-iqtisadi problemlərin kökündə həll olunmamış Qarabağ problemi dayanır və bu problem yoluna qoyulmayınca, İrəvan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiasından əl çıkib blokada rejimindən çıxmayınca, onun əhalisini heç kim, o cümlədən Rusiya aclıq və səfalətdən, miskin həyat və kütləvi köçdən xilas edə bilməyəcək..



## Paşinyan sumqayıtlını müşavir etdi: "Azərbaycana nifrət etmirəm..."

**Ermənistanın baş naziri Nikol Paşinyan Kalavan kəndinin sakinini özünün müşaviri təyin edib. Axar.az xəbər verir ki, bu məlumatı Paşinyan özünün facebook səhifəsində paylaşıb. Paşinyan təyin etdiyi şəxsin Robert Qukasyan olduğunu bildirib.**

Qeyd edək ki, hazırda Kalavan adlanan kəndin adı əvvəllər Əmirxeyir olub. Azərbaycanlıların yaşadığı bu kənddə Ermənistandan deportasiya olan zamana qədər 700 nəfər yaşayıb. Deportasiya başladıqdan sonra isə azərbaycanlılar bu kənddəki evləri Azərbaycandan ayrılan ermənilərlə mübadilə ediblər. Nəticədə kənddə Şəmkir, Gəncə və Sumqayıtdan olan ermənilər məskunlaşıblar.

Hazırda kənddə 26 ailə və ümumilikdə 113 nəfər yaşayır. Bu ailələrdən 8-i sonradan Kalavan kəndinə köçüb. Robert Qukasyana gəlincə isə o, Dağlıq Qarabağda anadan olsa da, uşaqlığının əsas hissəsi Sumqayıtda keçib. 1988-ci ildə Sumqayıt hadisələrindən sonra Qukasyanın ailəsi Sumqayıtdakı evlərini Kalavan kəndinin sakinlərindən birinin evi ilə əvəz edərək, Ermənistana köçüb. Qukasyan sonradan verdiyi açıqlamalarında azərbaycanlılara nifrət etmədiyini, onu və ailəsini Sumqayıt hadisələri zamanı məhz azərbaycanlıların xilas etdiyini, başqa bir şəraitdə azərbaycanlılarla çox yaxşı qonşu ola biləcəklərini etiraf edib.

Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən bu kənd məhz Qukasyanın sayəsində Ermənistanda inkişaf etməyə başlayan turizm mərkəzlərindən birinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 173(7343) 22 avqust 2019

# "Sovetski"ni bu dəfə metropoliten sökəcək

## Sakinlər bildirirlər ki, söküntünün qarşılığında başqa yerdə ev ala biləcəkləri miqdarda kompensasiya istəyirlər...








**Bakının illərdir söküntü dalğasının səngimədiyi "Sovetski" məhəlləsində yenidən evlər söküləcək. Bu dəfə yaşayış obyektlərinin sökülməsinin səbəbi "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətidir. Belə ki, ötən həftə məlumat yayıldı ki, Nazirlər Kabineti "Qatarların təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə dartıazaldıcı yarımstansiyanın tikintisi ilə bağlı torpaq sahəsindən istifadə hüququnu və həmin torpaq üzərində yerləşən yaşayış obyektlərini dövlət ehtiyacları üçün alan orqanın müəyyən edilməsi barədə" qərar verib.**

Qərara əsasən, qatarların təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə Bakı şəhəri, Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, 430-cu məhəllə ərazisində dartıazaldıcı yarımstansiyanın tikintisi ilə əlaqədar 0,0606 hektar torpaq sahəsindən istifadə hüququnu və həmin torpaq üzərində yerləşən vətəndaşlara məxsus yaşayış obyektlərini dövlət ehtiyacları üçün alan orqan "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti müəyyən edilib.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti göstərilən torpaq sahəsinin və üzərindəki tikililərin dövlət ehtiyacları üçün alınması ilə bağlı hazırlıq tədbirlərini "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanunun tələblərinə uyğun olaraq həyata keçirməli və bu barədə Nazirlər Kabinetinə təkliflər təqdim etməlidir. Bu qərarın icrasına nəzarət Nazirlər Kabineti Aparatının Regionların inkişafı, kənd təsərrüfatı və ekologiya məsələləri şöbəsinə həvalə edilib.

**"Yeni Müsavat"ın reportyor qrupu olaraq ərazidə olub, görülən işlərlə maraqlandıq. Söhbət etdiyimiz sakinlər söylədilər ki, ötən aylarda bu ərazilərdə söküntü deyil, təmir işlər aparılıb. Sakin Valeh Həmidov aşağıdakıları bildirdi:**



"Metronun "Nizami" stansiyasının ətrafına yerləşən köhnə tikililərin fasadı yeniləndi, təmir işləri görüldü. Küçəyə baxan binaların hamısının fasad örtüyü təzələndi. İndi də burada söküntü işlərinin aparılacağı xəbəri yayılıb. Onsuz da ərazidə 2014-cü ildə söküntü işi görülür. Yay aylarında toz-dumanın əlindən evdə pəncərəni aça bilmirik. Pəncərəni bir az açıq qoyanda baxırsan ki, qənd qabındakı ağ qənd qapqara olub. İçəri dərhal toz vurur. Pəncərəni də qapadanda havasızlıqdan əziyyət çəkirik. Ona görə də köçürüləcəyimiz günü gözləyirik. Ancaq hələ ki bu barədə konkret söz deyilmir. Köçürülən ailələrdən razı və narazı qalanlar çox olub. Ümid edirik ki, bizə heç olmasa ayrı yerdə ev ala biləcəyimiz məbləğdə kompensasiya veriləcək. Mən maraqlanıram ki, son zamanlar həm torpaq, həm ev, həm də tikinti materialları bahalaşıb. Gərək ki, kompensasiya veriləndə bu kimi məsələlər nəzərə alınsın".

**Digər sakin Firudin söylədi ki, bu ərazilərdə metro ilə bağlı qazıntı işləri çox aparılıb:**

"Murtuza Muxtarov küçəsində metronun havalandırma yeri də var. Mən özüm də metroda çalışmışam və məlumatım var ki, bu yerlərdə nə qədər dərin qazıntı işləri aparılıb. Sovet dövründə burada sığınacaq da tikmişdilər. Ancaq qazılan yerləri su basdı. Metronun "Nizami" stansiyası açılan zaman su axını gəlmişdi. Suyun qabağını almaq olmurdu. Sonradan öyrəndilər ki, həmin su axını "Böyük şor" gölündən gəlir və qarşısını aldılar. Yəni bura göründüyü qədər sadə yer deyil. Ona görə də, görünür, metro üçün hansısa tikintilər aparılacaq və torpağa ehtiyac var. Əgər belədirsə, camaata normal kompensasiya verilsin. Yaxşı kompensasiya verilərsə, camaat narazılıq etməz. Bura nə qədər tozlu olsa da, alışmışıq, öyrəşmişik. Ona görə də şəxsən mən bu əraziləri tərk etmək istəmirəm".

Murtuza Muxtarov küçəsində hazırda hansısa söküntü işlərinin aparıldığının şahidi olmadıq. Ərazidə köhnə evlər, mağazalar və digər bu kimi obyektlər yerləşir.

Məlumat verək ki, "Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər. Hazırda həmin sakinlər Bakının müxtəlif yerlərində məskunlaşıblar. Həmin köhnə evlərin yerində isə park salınıb.

2018-ci ildə "Sovetski"də söküntünün ikinci dalğası başlayıb. Ümumilikdə isə məlumata görə, bu günə qədər 26 hektardan çox sahəni əhatə edən ərazidə 5 mindən çox yaşayış və qeyri-yaşayış obyektləri dövlət ehtiyacları üçün sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb. "Sovetski"də birinci mərhələdə 40 hektar ərazi boşaldılıb. 6 hektar ərazidə 7,1 kilometr uzunluğunda asfalt-beton örtüyünün sahəsi 87,6 min kvadratmetr təşkil edən Nəriman Nərimanov, Abdulla Şaiq, Balababa Məcidov, Mirzağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması başa çatdırılıb. Sökülən evlərə görə sakinlərə hər kvadrata 1500 manat olmaqla kompensasiya ödənilib.

Hazırda "Sovetski" ərazisi hündür binaların əhatəsində qalıb. Ortada qalan evlərin isə prosesin 4-cü mərhələsində sökülməsi planlaşdırılır.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar: Elçin Əkbərov**

## ETSN meşə yanğınlarının əsas səbəblərini açıqlayıb

**"İnsan faktoru meşə yanğınlarına səbəb olan əsas amillərdəndir. Biz yanğınların qarşısının alınması, günahkar şəxslərin ortaya çıxarılması və onların ən azından həm ictimai tənbeh olunması, həm də qanun qarşısında cavab verməsi üçün müvafiq qurumlarla birlikdə əlimizdən gələni edəcəyik".**

APA-nın xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə bildirib.

Onun sözlərinə görə, hər il dünyada baş verən meşə yanğınları insan tələfatı, minlərlə hektar meşə sahəsinin, yaşıllığın məhvi ilə nəticələnir: "İnsanların məsuliyyətsizliyi ucbatından uzun illər ərzində qorunub saxlanmış meşələr, nadir ağaclar bir anda məhv olur. Bizdə bu cür genişmiqyaslı yanğınlar baş vermir, insan tələfatı olmur. Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Qalanmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması, söndürülməmiş kibritin, siqaret kötüyünün yerə atılması, maşınların mühərrikindən çıxan qığılcımlar da meşə yanğınlarına səbəb olan əsas amillərdəndir. Son zamanlar baş verənlər, insanların yaşıllıqlara laqeyd münasibəti, ətraf ərazilərin məişət tullantıları ilə çirklənməsi, eləcə də bugünlərdə müxtəlif yerlərdə baş verən ardıcıl yanğınlar onu göstərir ki, biz təbiətimizə qarşı yenə də səhlənkarıq. Milli parklar Azərbaycanın ən gözəl füsunkar təbiəti olan ərazilərində yerləşir. Nəzərə alaq ki, Hirkan Milli Parkı UNESCO-nun irs siyahısına nominasiyadadır. Yəni bu, dünyanın inciləri siyahısındadır. Biz bu gün baş verən yanğını ilkin olaraq təhlil etmişik. Milli Park yaxınlıqda yerləşən kəndin və bələdiyyə torpaqlarının sərhədindən başlanır. Yanğın nəticəsində dəyəri ölçüyəgəlməz olan meşələrimiz, ağaclarımız yanır, orada yaşayan fauna növləri həmin ərazini tərk edir, məhv olur, bu işlərin bərpası üçün dövlətə milyonlarla ziyan dəyir. Bizim qanunvericiliyimiz ehtiyatsızlığı da, ehtiyatsızlıqdan edilən cinayəti də cinayət sayır. Bu baxımdan ehtiyatsızlıqdan olan əməllərin qarşısının alınması vacibdir".

YENİ MÜSAVAT
N 173(7343) 22 avqust 2019

# Məhərrəmlik əyyamı gəlir - niyə 60 gün matəm?

## Bakı şadlıq evlərinə toy sifarişləri dayanıb; ilahiyyatçı: "Elə məsələlər var ki, şəriətdə qeyd olunmayıb..."

**Bu il Məhərrəm ayı sentyabrın 1-də başlayacaq. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) verilən məlumata görə, Məhərrəm ayı sentyabrın 29-dək davam edəcək. Məhərrəm ayının 10-cu günü, yəni sentyabrın 10-u Aşuraya təsadüf edəcək.**

Məhərrəm ayı başa çatdıqdan sonra ənənəvi olaraq Səfər ayı başlayacaq. Səfər ayı isə oktyabrın 29-da başa çatacaq. Beləliklə, ölkəmizdə şiə məzhəbinin nümayəndələri Məhərrəm və Səfər ayında, ümumilikdə 60 gün matəm saxlayacaq, toy və mərasim keçirməkdən imtina edəcəklər.

Onu da xatırladaq ki, bir çox müsəlman ölkələrində, xüsusən də sünni məzhəbində olanlar məhərrəmlik yasaqlarına ciddi şəkildə əməl etmir. Azərbaycanda da sünni məzhəbinə mənsub insanların yaşadığı bölgələrdə bəzən böyük və kiçik toy məclislərinin, nişan və digər bu kimi şənliklərin keçirildiyinin şahidi oluruq. Məsələn, deyilənə görə, Qazağın yalnız 2-3 kəndində məhərrəmlik adət-ənənələrinə əməl olunur. Burada məhərrəmlik dövründə də digər aylarda olduğu kimi, toy-nişan mərasimləri keçirilir. O cümlədən Zaqatala-Balakən, Şəki, Qusar bölgələrində məhərrəmlik yasaqlarına o qədər də riayət olunmadığı bildirilir. Lakin həmin bölgələrdə yaşayanlar əksər hallarda məhərrəmlik yasaqlarında əməl etməsələr də, böyük toy məclisi keçirməkdən çəkinir, bu ayda toy edilərsə, uğursuzluq olacağını düşünürlər.



Bəs Bakıda Məhərrəm ayında toy sifarişi verənlər olacaqmı? Məsələni daha yaxından öyrənmək üçün "Yeni Müsavat"ın əməkdaşı kimi paytaxtdakı bir neçə şadlıq sarayı ilə əlaqə saxladıq.

**"Xəzər Palace"nin administratoru əməkdaşımıza açıqlamasında bildirdi ki, sentyabr və oktyabr ayı üçün heç bir sifariş almayıblar:** "Ümumiyyətlə, heç vaxt Məhərrəm ayında toy sifarişi almırıq. Bu, mümkün də deyil, heç kəs bu ayda toy etmir".

**"Lido Saray"ın da administratoru matəm ayında heç bir zaman sifariş almadıqlarını bildirdi:** "Bu müddət ərazində demək olar ki, heç bir fəaliyyətimiz olmur, heç bir sifariş qəbul etmirik, məkanımız bağlı elan olunur. Bu günə qədər heç vaxt bu ayda sifariş almamışıq. Amma sifariş olsa da, dinimizə hörmətlə yanaşaraq qəbul etmərik".

**"Çıraq Plaza"nın administratoru isə qeyd etdi ki, toy məclisi olmasa da, bəzən kiçik şənlik məclisləri ilə bağlı sifarişlər alırlar:** "Məlum məsələdir ki, Məhərrəm ayında heç kəs toy etmir - eləcə də Bakıda. Bu il də sentyabr və oktyabr ayı üçün heç bir sifariş almamışıq. Amma kiçik məclislərlə bağlı sifarişlər olanda həyata keçiririk".

Digər şadlıq sarayı və restoranlardan da eyni cavab aldıq.

**Bəs dinimiz Məhərrəm ayında toy və şənliyi qadağan edirmi? Mövzu ilə bağlı ilahiyyatçı Emil Rahiloğlu "Yeni Müsavat"a danışdı:** "Bəzi məsələlər var ki, şəriətdə qeyd olunmayıb. Buna yazılmamış qanunlar da demək olar, yəni onları sırf şəriət tənzimləmir. Bu məsələlərdən biri də əzadarlıq məsələsidir. Məlum olduğu kimi, yaxınımızı itirəndə nəinki toy məclisi etmir, hətta ailəyə yaxın kimsə toy məclisi edəndə bunu xoş qarşılamırıq. Halbuki ailə qurmaq dinimizdə bəyənilmiş bir işdir. Lakin gördüyümüz kimi, bu məsələdə fikirlər çox zaman toqquşur. Peyğəmbər ailəsindən, canından olan şəxsiyyətlər Kərbəla çölündə vəhşicəsinə, məzlumcasına susuz şəhid olub. Onların sayı 1-2 deyil, çoxlu sayda olub. Qadınlar əsir aparılıb, körpələr oxla öldürülüb. Bu tarixi faciədir ki, peyğəmbərimiz hələ bu faciə baş verməmişdən uzun illər əvvəl o hadisə üçün ağlayıb. Bu bizim tariximizdə çox açıq-aydın şəkildə, heç bir məzhəb fərqi tutulmadan qeyd olunub. Hədislərimizdə də var, peyğəmbərimiz nəinki İmam Əliyə ağlayıb, hətta digər peyğəmbərlər də Kərbəla hadisəsinin baş verəcəyini bildirib, ağlayıblar. Yəni Məhərrəm ayı, Aşura məsələsi sıradan bir məsələ deyil və çox böyük bir faciədir. Bu faciəyə yas saxlamaqla tarixdə necə böyük haqsızlığın baş verdiyini, peyğəmbər ailəsinə edilən zülmü xatırladır və insanlara çatdırmağa çalışırlar. Beləliklə, iki ay ərzində toy etməməklə ictimai fəsada yol verilmir. Yəni iki ay toy etməyə bilərik, bu ənənəni bizdən əvvəlki nəsillər də edib. İndi də bu ənənəni davam etdiririk və cəmiyyətimiz də bunu qəbul edir. Doğrudur, bəziləri indi çalışır ki, Kərbəla faciəsini sual altına alsınlar, buna sırf xroniki tarix kimi yanaşsınlar. Bu gün Azərbaycanın hər bir gəncinin İmam Hüseyn əxlaqına, ideologiyasına, Aşura təfəkkürünə ehtiyacı var, hansı ki, hazırda torpaqlarımızın 20 faizi işğal altındadır. Şəhadət ruhiyyəsi bizdə torpaqlarımızın azad olunmasını aşılaya bilər".

Xatırladaq ki, Məhərrəm ayı İslam peyğəmbərinin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biridir. Lakin Məhərrəm ayının 10-cu günü İslam tarixinə Aşura günü, İmam-Hüseyn (ə) və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olub. Aşuranın qırxıncı günündən sonra 10 gün də Səfər ayı üçün matəm günü hesab olunmasının da öz mənası var. Belə ki, Məhərrəm ayında müharibə etməkdən çəkinən ərəb tayfaları Səfər ayından başlayaraq öz münaqişələrinə davam edib, müharibələr üçün hazırlıqlara başlayıblar. Bəzən bu ayı nəhs ay kimi də qəbul edirlər. Lakin dini ekspertlər qeyd edir ki, bu inancın dini əsası yoxdur. Beləliklə, Məhərrəmlik ay 60 gün çəkmiş olur. Amma digər müsəlman ölkələri var ki, məsələn, İranda məhərrəmlik əsasən 40 gün çəkir.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# İçərisində azərbaycanlıların da olduğu İŞİD bitirildimi?

## Təhlükəsizlik ekspertinə görə, başqa bir adla yeni terror təşkilatı yaradıla bilər...

**Vaxtilə Suriya və İraqda milyonlarla əhalini səksəkədə saxlayan İŞİD terror qruplaşması bu gün heç olmamış kimi görünür. 4 ildən bir qədər artıq müddətdə 80-ə yaxın ölkədən ibarət koalisiya bu qruplaşmaya qarşı hərbi əməliyyatlar aparıb. Özünü "İslam Dövləti" adlandıran qruplaşmaya yerləşdiyimiz regiondan, ölkəmizdən qoşulanlar da az deyildi.**



Təxminlərə görə, bu gün Suriya və İraq boyu səpələnmiş 20-30 min arası İŞİD-çi cinayət məsuliyyətindən ehtiyat edərək öz ölkələrinə qayıtmayıblar. İŞİD-in yaranması haqda bilgili olanlar qeyd edirlər ki, qruplaşmanın yenidən dirçəlməsi mümkündür. Qruplaşma İraqda keçmiş ordu və kəşfiyyat zabitlərinin, ərəb dünyasının daxilindən və xaricindən İraqa gəlmiş cihadçıların ittifaqı nəticəsində "Əl-Qaidə" kökü üstündə formalaşıb.

2014-cü ilin yayında sünni radikallardan ibarət İŞİD qrupu İraqın ikinci şəhəri olan Mosulu ələ keçirib. Sonradan İraq ərazisinin üçdə birini öz nəzarətinə götürüb. Qonşu Suriyada isə xaos, qarma-qarışıqlıq və vətəndaş müharibəsi İŞİD üçün münbit şərait yaradıb. Burada da böyük ərazilər ələ keçirilib. Bu gün yenilmiş kimi görünən İŞİD-in yenidən ayağa qalxması ehtimalı çox aşağı qiymətləndirilir.

**Təhlükəsizlik məsələləri üzrə ekspert, Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasını prezidenti Sülhəddin Əkbər deyir ki, bu tip terror təşkilatları müxtəlif ölkələrin xüsusi xidmət orqanlarına bağlı olur və həmin ölkələrin vəkalət müharibələrində onlardan alət kimi istifadə edilir:** "İŞİD hələlik yeni göstəriş, təklif gələnə qədər fəaliyyətsiz qalacaq. Amma zaman-zaman ABŞ-ın müxtəlif dairələrindən, xüsusən də siyasi-diplomatik, hərbi-kəşfiyyat dairələrindən İŞİD-in yenidən canlana biləcəyi ilə bağlı fikirlər eşidilir. Bu, o deməkdir ki, İŞİD yenidən lazım ola bilər. Bu cür fikirlər ciddi mesajdır və ciddiyə almaq lazımdır".

**Sülhəddin Əkbər İŞİD-in yeni vəkalət müharibəsi başlayanadək fəaliyyətsiz saxlanılacağı ehtimalının qaldığını qeyd edib:** "Suriya və İraqda aranı qarışdırma ehtiyacı yaranana qədər yəqin ki, bu istiqamətdə sakitlik olacaq. Mümkündür ki, İŞİD adı ilə deyil, başqa bir adla yeni terror təşkilatı yaradılsın".

**Sülhəddin Əkbərə görə, terror aktivliyinin izlənməsi vacibdir:** "Dünyada gedən vəkalət müharibələri, hərbi müdaxilələr və beynəlxalq terrorçu qruplaşmaların hərəkətliliyini izləmək lazımdır. Beynəlxalq terrorçu qrupların arxasında dayanan dövlətlər demək olar ki, eyni dövlətlərdir. Ona görə də terrorçu təşkilatların birləşməsi, terrorçuların bir təşkilatdan digərinə keçidləri olur. İŞİD-in gərginlik ocağına çevrilməkdə olan İranda peyda olmaması belə görünür ki, orada fərqli vasitələrdən istifadə olunacaq. İrana qarşı fərqli hərbi strategiya sərgilənəcək. Bu gün İranla bağlı mənzərə, xüsusi xidmət orqanlarının gizli planları aydın deyil. Digər tərəfdən, İŞİD sünni məzhəbinə söykənir, İranda isə şiə məzhəbli müsəlmanlar çoxluqdadır. Ona görə də İranda mümkündür ki, İŞİD-dən deyil, fərqli terror qruplarından istifadə edilsin. İran, İraq, Suriya və Türkiyədəki kürd terror qrupları, İran müxalifəti ilə iş aparılır. Digər tərəfdən, sünni müxalifətdən də istifadə oluna bilər. Amma onların təsir dairəsi məhduddur".

**Sülhəddin Əkbərin sözlərinə görə, İŞİD-in azərbaycanlı üzvlərinin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması məsələsi də öz aktuallığını saxlayır:** "İŞİD Yaxın Şərqdən sıxışdırılandan sonra qruplaşmaya ən müxtəlif ölkələrdən qoşulanlar geriyə - vətənlərinə dönüblər. İŞİD sıralarında döyüşənlər məsuliyyətə cəlb edilməli, o şəxslərin ailələri isə təhlükəsizlik süzgəcindən keçirilməlidir. Dövlət Təhükəsizlik Xidmətindən verilən məlumata görə, ümumilikdə 900-dək azərbaycanlı İŞİD terror təşkilatına qoşulub və onlardan 85 nəfəri hazırda həbsdədir, 195 nəfər isə vətəndaşlıqdan çıxarılıb. 2015-ci ildə qanunvericiliyə edilən dəyişikliyə görə, Azərbaycan vətəndaşının terror fəaliyyətində iştirakı onun vətəndaşlığının itirilməsi ilə nəticələnir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 173 (7343) 22 avqust 2019

# Amerikalı uşaqların arzusu idmançı olmaq imiş

Amerikanın media orqanı olan "Fatherly" müəyyənləşdirib ki, əksər uşaqlar professional idmançı olmağa can atırlar. Sorğuda 6 yaşa qədər olan 6000 nəfər uşaq iştirak edib. Sorğunun nəticələrinə uyğun olaraq müəyyənləşib ki, populyarlığına görə ikinci yerdə həkim sənəti gəlir. Üçüncü yerin sənəti hələ ki müəyyənləşməyib. Ondan sonrakı yerlərdə isə öz gələcək fəaliyyətlərini müəllimliklə bağlamaq istəyənlər dayanır. 2007-ci ildə isə eyni sorğu rusiyalı uşaqlar arasında keçiriləndə valideynlərin böyük əksəriyyəti öz uşaqlarını həkim və ya tibb işçisi kimi görmək istədiklərini açıqlayıb. İkinci yerdə vəkillər, üçüncü yerdə isə mühəndis və biznesmenlər gəlir.





## Anesteziya effekti yaşamaq üçün bunları etdi

Britaniya qraflığı Hardfordşir sakini Niki Heri doqquz dəfə həkimləri anesteziya effekti yaşamaq üçün lazımsız əməliyyatlar keçirməyə razı salıb. O, eyni zamanda keyitməyə qarşı resept də əldə etməyə çalışıb. N.Heri anesteziya asılılığı ilə bağlı "The Mirror" nəşrinə bildirib ki, onda bu asılılıq 18 yaşında əmələ gəlib. Həmin vaxt o, çiynindəki ağrılardan şikayətçi idi və həkim ona keyidici "Ko-kodamol" yazmışdı. Aradan beş ay keçəndən sonra tabletlər təsir etməməyə başladı və onu əməliyyata göndərdilər. Bu zaman qıza morfi iynəsi vurdular. "Məndə belə bir təəssürat var idi ki, mən buludların üstündəyəm və qalanı vacib deyil".

Həmin vaxt britaniyalı qızı evə yazdılar və ona "Ko-kodamola"nı daha yüksək dozada yazdılar. Vaxt keçdikcə qız gün ərzində yazılan üç tabletkanın əvəzinə on tabletka atmağa başladı. Əgər Herri uzun müddət tabletkanı qəbul etmirdisə, onda panik atak başlanırdı. Reseptin istifadə müddəti bitəndə isə o, həkimi aldatdı ki, guya dizlərindəki ağrı keçmir. Hansı həkim ona keyləşdirici dərmanların istifadəsini dayandırmağı deyirdisə, o, dərhal həmin həkimi dəyişdirirdi. Əri ondan bu tabletkaların qəbulunu dayandırmağı xahiş etsə də, o, gizli də olsa qəbul etməkdə davam edirdi.

## Sadiq it sahibindən 15 dəqiqə sonra ölüb



Şotlandiyanın Alloa şəhərində bir it sahibinin ölümündən 15 dəqiqə sonra ölüb. Bu barədə "Daily Mirror" nəşri xəbər verib. 25 yaşlı Stuard Hatçison 8 il boyunca beyin xərçəngi ilə mübarizə aparırdı. O, kimyəvi müalicə kursu keçir və bir neçə əməliyyatı da arxada qoymuşdu. Bu ilin mart ayında o, arvadı Daniellə birlikdə çıxdığı istirahət zamanı özünü çox pis hiss edib. Kişinin əli ağrımağa başlayıb və bir neçə müayinədən, analizdən sonra həkimlər xəstəliyin sümüklərə yayıldığı qənaətinə gəliblər. Diaqnozundan xəbər tutan Stuard son həftələrini ailəsi ilə birgə yaşadığı evində keçirməyə qərar verib.

Həyatının son günündə arvadı təsadüfən kişinin eynəyini qırıb. Atası isə Staurdın hər an ölə biləcəyi ehtimalını nəzərə alaraq, oğluna kömək etmək istəyib və onların öz evlərində qalan eynəyinin arxasınca gedib. Evə girən ata oradakı itin özünü çox pis hiss etdiyini görüb. Kişi iti dərhal veterinar xəstəxanasına aparsa da, heyvanı xilas etmək mümkün olmayıb. Daha sonra isə aydınlaşıb ki, it sahibindən 15 dəqiqə sonra can verib.

"Stuardın üç iti vardı. Amma Nero onun sevimlisi idi və ondan bir addım da kənara ayrılmırdı", - bunu da Stuardın anası Fiona Konaqan bildirib.



## Məhz bu gün pis xatirələrdən qurtulmaq mümkündür

Pis xatirələrdən qurtulmaq mümkün olacaq. San Diegoda "School of Medicine"də çalışan elm adamları bu işi laboratoriya şəraitindəki siçanlarla sınaqdan keçirdikdən sonra nəticə əldə ediblər. Elm adamları əvvəlcə siçanın işıqdan qorxması üçün şərait yaradaraq bir təcrübə apardılar. İşığa doğru gedəndə ayağından elektrik verilən siçan işıqdan qorxmağa başlayıb. Daha sonra neyronlar arasındakı bağlantını qopararaq siçanın bu qorxusuna tamamən qalib gəlinməsinə nail olunub. İşin maraqlı tərəfi odur ki, siçanın neyronlarının arasındakı bağlılıq gücləndiriləndə siçan təkrar işıqdan qorxmağa başlayıb, yeni yaddaşında yox olan xatirələr geri gəlib. Bu sınaqla Jim Carreynin məşhur filmi ağla gəlsə də, araşdırmaçılar bunun "Alzheimer" xəstələri üçün istifadə oluna biləcəyini düşünür. Bugünlərdə isə dünyada pis xatirələrdən qurtulma günü keçirilib. İnsanlar il ərzində ən pis xatirələrini vərəqə yazıb, simvolik olaraq onlardan qurtulurlar.

## Bunları bilirsinizmi?

- Yer fındığından dinamit hazırlamaq üçün də istifadə olunur.
- Hər saniyə Yer sakinlərinin təqribən 1 faizi ölümcül içkili vəziyyətdə olur.
- Adətən uşaqlar atadan boy, anadan çəkini götürürlər.
- Himalay Yer kürəsinin 1/10 hissəsini örtür.
- Böyük Vətən müharibəsi zamanı alman sualtı qayıqlarından biri ayaqyolunda baş verən nasazlığa görə batıb.
- Günəşin çəkisi hər il 360 000 000 ton azalır.
- Vaxtilə Mona Lizanın portreti Napoleonun yataq otağında asılı olub.
- Bryus Linin hərəkətləri o qədər sürətli olub ki, film yaradıcıları onun görmək üçün filmi yavaşıtmalı olurdular.
- İldə 10 mindən çox quş pəncərəyə çırpıldığı üçün ölür.
- Səhərlər insanın oyanmasına alma kofeindən daha yaxşı kömək edir.
- Başı divara vurmaqla saatda 150 kalori itirmək mümkündür.
- Beyni bədəninə nisbətdə ən böyük heyvan qarışqadır.
- ABŞ-ın ilk bayrağı çətənədən hazırlanıb.
- Yer kürəsinin yarıdan çox əhalisi qarı ancaq şəkillərdə görüblər.
- 1983-cü ildən bəri bir dənə də olsun doğum qeydə alınmayan ölkə Vatikandır.
- ABŞ-ın Rod-Aylend ştatında Providens şəhərində şənbə günləri diş şotkası satmaq qadağandır.
- Monakonun Milli orkestri ordusundan çoxdur.
- İnsan DNT-sinin 30 faizi kahınınkı ilə üst-üstə düşür.
- Ən uzun elmi ad belədir: Metilpropenilendihidroksitsinnamenilakril turşu.

## Nənəsinin yasına gedən uşağın valideynləri cəzalandırıldılar

İngiltərənin Stok-on-Trent şəhərində ər-arvadı övladları iki həftə dərsə getmədiyi üçün cərimələyiblər. Onun dərsə getməməsinin səbəbi isə nənəsinin yas mərasimi olub. Bu barədə Böyük Britaniyanın "Daily Mirror" nəşri yazıb.



Karol Follous və onun əri Deyvid 120 funt sterlinq məbləğində cərimə olunublar. 9 yaşlı oğulları Loqanı nənəsinin yas mərasiminə apardıqları üçün uşaq məşğələlərdə iştirak edə bilməyib. Ailə iddia edir ki, öncədən məktəb rəhbərliyinə bununla bağlı xəbərdarlıq edilsə də, nəticə dəyişməyib.

Məktəb rəhbərliyindən bildirilib ki, uşaq, sadəcə, beş gün dərs buraxa bilər. Ondan artıq günlər isə gəzinti, dərsdən yayınma sayılır. Nəticədə Loqan 20 iyunda Cənubi Afrika Respublikasına gedib və 5 iyulda qayıdıb. Beləcə, 12 dərs günü buraxıb.

"Mən məzuniyyətə, gəzintiyə getsəydim, təbii ki, cərimə ödəyərdim. Amma mən nənəsini basdırmaq üçün oğlumu aparmışam. Axı mən onu evdə təkbaşına qoya bilməzdim. Bu münasibət xoş deyil", - Deyvid belə deyib.

Məktəbin ərizəsində qeyd olunub ki, əgər cütlük 6 sentyabra qədər cəriməni ödəsə, o zaman məbləğ ikiqat az olacaq. Yox, əgər onlar bunu etməkdən imtina etsələr, cərimənin məbləği 1000 funt sterlinq olacaq.

Təhsil müəssisəsi baş vermiş hadisəyə şərh verməkdən imtina edib. Britaniyalılar isə hesab edirlər ki, bu yolla onlar yaxın adamlarının ölümünə görə "cəzalandırılırlar".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050